AZƏRBAYCAN RESPUBLİKASININ

ALİ MƏHKƏMƏSİ

# M Ü N D Ə R İ C A T


Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə müraciəti........................................................... 3
Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu........................... 5
Ali Məhkəmədə 2016-ci ildə baxılmış işlər haqqında ümumi məlumat................................... 8
Ali Məhkəmənin məhkəmə kollegiyalarında və Plenumunda icraat......................................... 11
Ali Məhkəmənin kollegiyalarında 2016-cı ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat: ........................................................................................ 12
Ali Məhkəmənin Mülki kollegiyası........................................................................................ 12
Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası........................................................................ 17
Ali Məhkəmənin Cinayət kollegiyası..................................................................................... 25
Ali Məhkəmənin Hərbi kollegiyası........................................................................................ 32
Ali Məhkəmənin Plenumu..................................................................................................... 35
Ali Məhkəmənin Aparatı və İşlər idarəsi............................................................................... 38
Ali Məhkəmənin 2016-cı ildə beynəlxalq əlaqələri............................................................... 46
Ali Məhkəmənin İnternet səhifəsi.......................................................................................... 52
Ali Məhkəmənin bülleteni..................................................................................................... 54
Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi................................................................ 55
Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası.................................................................................................. 55

## Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayevin mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndələrinə M Ü R A C İ Ə T İ

**Hörmətli xanımlar və cənablar!**



Ənənəvi olaraq hər ilin yekununda sizlərlə görüşür, fikir mübadiləsi aparırıq. Belə görüşlərin və fikir mübadilələrinin səmərəli olduğu qənaətindəyəm və sizləri salamlamaqdan məmnunam.

Məlumat üçün bildirirəm ki, 2016-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məhkəmə sistemi ilə bağlı Sərəncamlarının icrası və Ali məhkəmənin fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. 2016-cı ildən **"Elektron məhkəmə informasiya sistemi"** tətbiq edilməyə başlamış və məhkəmə sisteminin məlumat və ehtiyat mərkəzlərinin yaradılması üzrə işlər aparılır.

Məhkəmə sistemində informasiya texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanunu qəbul olunmuş və onun tətbiqi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti 07 noyabr 2016-cı il tarixli Sərəncam imzalamışdır. Bu qanuna əsasən iqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəmələrə elektron sənəd formasında verilə bilər, işdə iştirak edən şəxslər məhkəmə bildirişlərini və digər sənədləri elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) ala bilərlər. Məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılmalıdır.

"Elektron məhkəmə" informasiya sisteminin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir ki, bu da mövcud funksionallıqların daha da yaxşılaşdırılması və yeni funksionallıqların yaradılmasını təmin edəcəkdir.

Ali Məhkəmənin fəaliyyəti barədə ictimaiyyətdə kifayət qədər məlumatların olmasının təmin olunması üçün internet səhifəsində Ali Məhkəmənin Plenumu və kollegiyaları tərəfindən qəbul edilən qərarlar yerləşdirilir və digər məlumatlar verilir.

2016-cı ildə Ali Məhkəmənin kollegiyalarının fəaliyyətində müəyyən müsbət dəyişikliklər olmuşdur. Mülki, inzibati-iqtisadi və cinayət kollegiyalarında 2016-cı ildə baxılmış işlərin sayı 2015-ci illə müqayisədə artmışdır.

Mülki kollegiyada **10,4** faiz, inzibati-iqtisadi kollegiyada **28,8** faiz , cinayət kollegiyasında isə **1,6** faiz artma müşahidə olunmuşdur. Hərbi kollegiyada isə baxılan işlərin sayı **9,6** faiz azalmışdır.

Ümumiyyətlə, Ali Məhkəmə üzrə 2015-ci ildə **9404** işə baxılmışdırsa, 2016-cı ildə bu rəqəm **10530** olmuşdur ki, bu da **12** faiz artım deməkdir. 2016-cı ildə Ali Məhkəmədə vətəndaşların ərizə və şikayətlərinə, müraciətlərə baxılmasına, onlara əsaslı və dolğun cavablar verilməsinə xüsusi diqqət yetirilmişdir.

Hörmətli mətbuat nümayəndələri!

Ali Məhkəmənin qarşısında 2017-ci ildə də böyük vəzifələr durur. Məlum olduğu kimi, 10 fevral 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam verilmişdir. Hal-hazırda cari vəzifələrin icrası ilə yanaşı, həmin Sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində böyük işlər görülür. Sizi Ali Məhkəmə ilə daha sıx əməkdaşlığa dəvət edirəm. Ali Məhkəmənin fəaliyyətinin cəmiyyətə çatdırılmasında mətbuat nümayəndələrinin rolu əvəzsizdir. Qanunun aliliyinin təmin olunması, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial ədalətin bərpası naminə bu çox vacibdir.

Hər birinizə uğurlar arzulayıram.

**Hörmətlə,**

**Ramiz Rzayev**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin Sədri**

## Ali Məhkəmənin məhkəmə sistemində yeri, səlahiyyəti, tərkibi və strukturu

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə mülki, inzibati və iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə kassasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmə Azərbaycan Respublikasının Bakı şəhərində təşkil edilmişdir və onun yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmə Plenumdan və dörd məhkəmə kollegiyalarından ibarətdir.

"Məhkəmələr və Hakimlər haqqında" Azərbaycan Respublikasının qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 22 iyun 2010-cu il tarixli Qanununa əsasən Ali Məhkəmənin "mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə kollegiyaların" adları dəyişdirilərək müvafiq surətdə "mülki kollegiya, inzibati-iqtisadi kollegiya, cinayət kollegiyası və hərbi kollegiya" adlandırılmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyasının tərkibinin təşkili barədə" 11 oktyabr 2013-cü il tarixli qərarına əsasən məhkəmə kollegiyalarında işlərə baxılması üçün hər biri üç hakimdən ibarət olan məhkəmə tərkibləri, o cümlədən:

**Mülki kollegiya** - kollegiya sədrindən və on yeddi hakimdən ibarət altı məhkəmə tərkibi,

**İnzibati-iqtisadi kollegiya** - kollegiya sədrindən və doqquz hakimdən ibarət üç məhkəmə tərkibi,

**Cinayət kollegiyası** - kollegiya sədrindən və altı hakimdən ibarət iki məhkəmə tərkibi,

**Hərbi kollegiya** - kollegiya sədrindən və üç hakimdən ibarət bir məhkəmə tərkibi müəyyən edilmişdir.

Ali Məhkəmənin hakimlərinin sayı Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir və onlar bu vəzifəyə Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təyin edilir.

Ali Məhkəmə 2014-cü ildə Ali Məhkəmənin sədrindən, məhkəmə kollegiyalarının sədrlərindən və hakimlərindən - cəmi 40 hakimdən ibarət tərkibdə fəaliyyət göstərmişdir.

Ali Məhkəmənin Plenumuna onun bütün hakimləri daxildir.

Ali Məhkəmənin Plenumu üzvlərinin üçdə iki hissəsi iştirak etdikdə Plenum səlahiyyətli sayılır.

Plenum baxılan məsələlər üzrə qərar qəbul edir.

Ali Məhkəmənin Plenumunun qərarları açıq səsvermə yolu ilə səsvermədə iştirak edənlərin səs çoxluğu ilə qəbul edilir. Plenumun üzvləri məhkəmə işləri üzrə səsvermədə bitərəf qala bilməzlər.

Məhkumun vəziyyətini ağırlaşdıran əsaslara görə məhkəmə qərarları, bəraət hökmü, bəraətverici əsaslarla cinayət işinin icraatına xitam verilməsi haqqında məhkəmə qərarları səsvermədə iştirak edən Plenum üzvlərinin üçdə iki səs çoxluğu ilə ləğv edilə bilər.

Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.


Azərbaycan Respublikasının Ali Məhkəməsi
Ali Məhkəmənin Sədri
Ali Məhkəmənin sədr müavini
Cinayət kollegiyası 7 hakim
Mülki kollegiya 18 hakim
İnzibati-iqtisadi kollegiya 10 hakim
Hərbi kollegiya 4 hakim
Ali Məhkəmənin aparatı
Ali Məhkəmənin işlər idarəsi
Ali Məhkəmə aparatı rəhbərinin xidməti
Ali Məhkəmənin Plenumunun katibliyi
Cinayət kollegiyasının katibliyi
Mülki kollegiyanın katibliyi
İnzibati-iqtisadi kollegiyanın katibliyi
Hərbi kollegiyanın katibliyi
Dövlət qulluğu və kadr məsələləri sektoru
Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
Beynəlxalq əlaqələr şöbəsi
İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
Vətəndaşların qəbulu və müraciətlərlə iş şöbəsi
İcra şöbəsi
İnformasiya Texnologiyaları şöbəsi
Ali Məhkəmənin xatirə muzeyi
Ali Məhkəmənin kitabxanası
Ali Məhkəmənin mətbəəsi
İşlər müdirinin xidməti
Maliyyə təsərrüfat şöbəsi
Arxiv
Ali Məhkəmənin yeməkxanası

# Ali Məhkəmədə 2016-cı ildə baxılmış işlər haqqında ümumi məlumat

2016-cı ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında cəmi 13 292 iş, o cümlədən:

- Cinayət kollegiyasında 2 671 nəfər haqqında 2 409 iş,
- Hərbi kollegiyada 181 nəfər haqqında 154 iş,
- Mülki kollegiyada 7 662 iş,
- İnzibati kollegiyada 2 458 iş,
- İqtisadi kollegiyada 580 iş,
- Plenumda isə 29 iş olmuşdur.

2016-cı ildə Ali Məhkəmənin məhkəmə kollegiyalarının və Plenumunun icraatında olan 13 292 işdən cəmi 10 530 işə (80%) baxılmışdır. Onlardan:




- Cinayət kollegiyasında 2 126nəfər haqqında 1 886 işə,
- Hərbi kollegiyada 146 nəfər haqqında 122 işə,
- Mülki kollegiyada 6 246 işə,
- İnzibati kollegiyada 1 757 işə,
- İqtisadi kollegiyada 490 işə,
- Plenumda isə 29 işə baxılmışdır.

Ali Məhkəmədə 2016-cı ildə baxılmış işlərin sayını 2015-ci il ilə müqayisə etdikdə, 1 126 işin, (yəni 12%) artması görünür.

Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, 2015-ci il ilə müqayisədə 2016-cı ildə Ali Məhkəmədə baxılan işlərin sayı:

-Cinayət kollegiyasında 30 iş, ( 1,6%) artmış;

-Hərbi kollegiyada 13 iş ( 9,6%) azalmış;

-Mülki kollegiyada 589 iş (10,4%) artmış;

-İnzibati kollegiyada 358 iş (25,6%) artmış;
-İqtisadi kollegiyada 145 iş ( 42%) artmış;
-Plenumda isə 17 iş ( 1,4 dəfə) artmışdır.

Məhkəmə statistikasına dair məlumatlardan görünür ki, Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən 2016-cı ildə 13.758 nəfər, o cümlədən birinci instansiya ümumi məhkəmələr tərəfindən 12.515 nəfər, hərbi məhkəmələr tərəfindən isə 1.243 nəfər məhkum edilmiş, bu müddətdə 91 nəfər barəsində bəraət hökmü çıxarılmışdır.

Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2016-cı ildə ümumi məhkum edilənlərin sayı 2015-ci ilə nisbətən 488 nəfər (3,7%) artmışdır.

Qeyd olunan müddətdə Respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən ümumi məhkum edilənlərdən 4.580 nəfər barəsində hökmlərə apellyasiya şikayəti və protesti əsasında müvafiq apellyasiya məhkəmələri tərəfindən baxılmışdır ki, bu da respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılan cinayət işləri üzrə məhkum edilənlərin cəmi 33,3% faizini təşkil edir.

Məlumatın əhatə etdiyi dövrdə Apellyasiya Məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış 4580 nəfər haqqındakı hökm və qərarlardan 2272 nəfər barəsində işə Ali Məhkəmədə kassasiya şikayəti və protesti əsasında baxılmışdır ki, bu da respublikanın apellyasiya məhkəmələrində 2016-cı ildə baxılmış cinayət işləri üzrə məhkum edilənlərin cəmi 49,6 faizini təşkil edir.




Göründüyü kimi, 2016-cı ildə respublikanın birinci instansiya ümumi və hərbi məhkəmələri tərəfindən baxılmış cinayət işləri üzrə məhkum olunmuş şəxslər barəsindəki hökmlərin 33,3 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya məhkəmələrində cinayət mühakimə icraatı qaydasında baxılmış işlər üzrə çıxarılmış hökm və qərarların 49,6 faizinin

qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

Bundan əlavə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2016-cı ildə 372.415 işə, o cümlədən 358.536 mülki işlərə, 13.879 inzibati-iqtisadi işlərə baxılmışdır ki, bu da bütövlükdə 2015-ci ildə baxılmış 248.956 mülki və inzibati-iqtisadi işlərdən 123.459 (49,6%) iş çoxdur.

Məlumatın əhatə etdiyi dövrdə, Respublikanın birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələri tərəfindən qətnamə və qərardad çıxarılmaqla 372.415 işə baxılmışdır. Həmin işlər üzrə məhkəmə qətnamələrindən və qərardadlarından verilmiş apellyasiya şikayəti əsasında müvafiq apellyasiya məhkəmələrində 24.018 işə baxılmışdır ki, bu da birinci instansiya ümumi və inzibati-iqtisadi məhkəmələrində baxılmış işlərin cəmi 6,4 faizini təşkil edir.

Qeyd olunan müddətdə respublikanın apellyasiya məhkəmələrində baxılmış 24.018 mülki və inzibati-iqtisadi işlər üzrə qəbul edilmiş qətnamə və qərarlardan verilmiş kassasiya şikayətləri əsasında 8.493 işə Ali Məhkəmənin müvafiq kollegiyalarında kassasiya qaydasında baxılmışdır ki, bu da apellyasiya qaydasında baxılmış mülki və inzibati-iqtisadi işlərin 35,4 faizini təşkil edir.

Göründüyü kimi, Respublikanın birinci instansiya mülki və inzibati-iqtisadi məhkəmələri tərəfindən 2016-cı ildə baxılmış mülki və inzibati- iqtisadi işlər üzrə qəbul edilmiş yekun məhkəmə qərarlarının cəmi 6,4 faizinin qanuniliyi apellyasiya qaydasında, apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərarlarının isə 35,4 faizinin qanuniliyi kassasiya qaydasında yoxlanılmışdır.

## Ali Məhkəmənin kollegiyalarında və Plenumunda icraat

Ali Məhkəmənin məhkəmə kollegiyalarında ədalət mühakiməsi işlərə (materiallara) qanunvericilikdə nəzərdə tutulmuş qaydada və hədlərdə kassasiya qaydasında baxılmaqla həyata keçirilir.

**Ali Məhkəmənin Mülki və İnzibati-İqtisadi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin mülki və inzibati-iqtisadi kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi məqsədi ilə iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Cinayət və Hərbi Kollegiyalarında** apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

**Ali Məhkəmənin Plenumunda işlərə** qanunla müəyyən edilmiş hallarda və qaydada Ali Məhkəmə sədrinin təqdimatı, Azərbaycan Respublikası Baş Prokurorunun protesti və ya müdafiə tərəfin şikayəti əsasında əlavə kassasiya qaydasında və ya qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat qaydasında yenidən baxılır.

## Ali Məhkəmənin kollegiyalarında 2016-cı ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumat:

### 1. Ali Məhkəmənin Mülki kollegiyası




Ali Məhkəmənin Mülki kollegiyasında (bundan sonra «MK») apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadlarından verilən kassasiya şikayətinə və dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokurorun kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin mülki işlər üzrə məhkəmə kollegiyalarının qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2016-cı ildə MK-nın icraatına 7 662 iş daxil olmuşdur ki, bu da 2015-ci ildə icraatda olmuş 6 314 mülki işdən 1 348 iş, yəni 17,6 % çoxdur.

Hesabat dövründə MK-nın icraatında olan 7 662 mülki işdən 6 246 (81,5%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 77 (1%) iş baxılmadan qaytarılmış, 81 (1,1%) iş baxışdan çıxarılmış, 1 258 (16,4%) iş isə 2017-cı ilə qalıq keçirilmişdir.

MK-da 2015-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla 5 657 mülki işə baxılmışdırsa, 2016-cı ildə belə işlərin sayı 589 (10,4%) artaraq, 6 246 mülki iş təşkil etmişdir.

2016-cı ildə MK-nın icraatında olan işlərin təhlili ilə müəyyən edilir ki, yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 6 246 mülki işlərdən:

- 679 (10,9%) iş ailə münasibətləri üzrə mübahisələrə dair ;
- 211 (3,4%) iş əmək münasibətləri üzrə mübahisələrə dair ;
- 864 (13,8%) iş mənzil mübahisələri üzrə;

- 342 (5,5%) iş mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə ;
- 234 (3,7%) iş torpaq mübahisələri üzrə;
- 235 (3,8%) iş borc müqaviləsi üzrə mübahisələrə dair;
- 1 212 (19,4%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;
- 111 (1,8%) iş sığorta müqaviləsi üzrə;
- 158 (2,5%) iş vərəsəlik mübahisələri üzrə;
- 177 (2,8%) iş aliment alınması tələbləri üzrə;
-qalan 2 023 (32,4%) işlər isə digər məsələlərlə əlaqədar olmuşdur.

MK-da 2016-cı ildə 6 246 işə kassasiya qaydasında baxılmasının nəticələri:

-5 023 (80,4%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;

Cəmi 1 189 (19%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:

- 1 005 (16,1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 147 (2,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmişdir;

- 6 (0,05%) iş üzrə qətnamə ləğv edilərək iş baxılmamış saxlanılmışdır;

- 31 (0,4%) iş üzrə qətnamə ləğv edilərək iş üzrə icraata xitam verilmişdir;

- 34 (0,6%) iş üzrə qətnamə və qərardad dəyişdirilmişdir.

2016-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 57 795 manat dövlət rüsumu ödənilmişdir.

2016-cı il ərzində Məhkəmə Kollegiyası tərəfindən birinci və apellyasiya instansiyalarında mülki işlərə baxılarkən qanunvericiliyin tətbiqi ilə əlaqədar konkret işlər üzrə aşağı instansiya məhkəmələrinə və müvafiq orqanlara yol verilmiş qüsurlar barədə 36 məktub və icmal məktub göndərilmişdir.

Ali Məhkəmənin Mülki Kollegiyasında 2015-ci ildə 4 xüsusi qərardad qəbul edilmişdir.

Ali Məhkəmənin MK-da kassasiya qaydasında baxılmış işlərə dair məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 2016-cı ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| 2016 il<br>Mülki | Cəmi baxılmışdır | Qətnamə və ya qərardad qüvvədə saxlanılmışdır | Cəmi ləğv edilmişdir. Onlardan, | Ləğv edilib yenidən baxılması üçün apel.məhkəməsinə göndərilmişdir | Ləğv edilib yeni qərar qəbul edilmişdir | Ləğv edilib baxılmamış saxlanılmışdır | Ləğv edilib icraatına xitam verilmişdir | Cəmi dəyişdirilmişdir | Kassasiya icraatına xitam verilmişdir | Xüsusi qərar çıxarılmışdır |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Bakı Apellyasiya Məhkəməsi* | *3.451* | *2.772<br>80,3%* | *662<br>19,2%* | *554<br>16%* | *86<br>2,5%* | *2<br>0,1%* | *20<br>0,6%* | *17* | - | *3* |
| *Gəncə Apellyasiya Məhkəməsi* | *883* | *728<br>82,5%* | *151<br>17,1%* | *133<br>15%* | *13<br>1,5%* | *1<br>0,1%* | *4<br>0,5%* | *4* | - | - |
| *Sumqayıt Apellyasiya Məhkəməsi* | *741* | *570<br>76,9%* | *165<br>22,3%* | *135<br>18,2%* | *25<br>3,4%* | *3<br>0,4%* | *2<br>0,3%* | *6* | - | - |
| *Şirvan Apellyasiya Məhkəməsi* | *653* | *543<br>83,2%* | *106<br>16,2%* | *91<br>13,9%* | *10<br>1,5%* | - | *5<br>0,8%* | *4* | - | - |
| *Şəki Apellyasiya Məhkəməsi* | *496* | *389<br>78,4%* | *104<br>21%* | *91<br>18,4%* | *13<br>2,6%* | - | - | *3* | - | *1* |
| *Naxçıvan MR Ali Məhkəməsi* | *22* | *21<br>95,5%* | *1<br>4,5%* | - | *1<br>4,5%* | - | - | - | - | - |
| *AR Apellyasiya Məhkəməsi* | | | | | | | | | | |
| *CƏMİ:* | *6.246* | *5.023<br>66,7%* | *1.189<br>19%* | *1005<br>13,9%* | *147<br>13,9%* | *6<br>0,01%* | *31<br>0,5%* | *34<br>0,6%* | | *4* |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin MK-da 2016-cı ildə 6.246 işə baxıldığı halda, 2015-ci ilin müvafiq dövründə isə 5.657 işə baxılmışdır ki, bu da 2016-ci ildə baxılmış 589 iş (10,4%) artmasını göstərir.Qeyd olunan statistik məlumatları müqayisə etdikdə görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadların sayı 2016-cı ildə 1.189 olduğu halda, 2015-ci ilin müvafiq dövründə isə bu rəqəm 1.159 iş olmuşdur ki, bu da 30 işin (2,6%) artmasını göstərir.

2016-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 57.795 manat dövlət rüsumu ödənilmişdir. Hesabat dövründə MK-da baxılan işlər üzrə 4 iş üzrə xüsusi qərardad qəbul edilmişdir.




2016-cı ildə Ali Məhkəmənin Mülki Kollegiyasının icraatında AR Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 139 ərizə olmuşdur. Onlardan: 14 ərizə 2015-ci ildən qalıq kecmiş, 125 ərizə 2016-cı ildə daxil olmuşdur. 130 ərizəyə baxılmışdır, 5 ərizə 2017-ci ilə qalıq kimi keçmişdir.

2015-ci ildə Ali Məhkəmənin Mülki Kollegiyasının icraatında AR Ədliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə 129 ərizə olmuşdur. Onlardan: 4 ərizə 2014-cü ildən qalıq kecmiş, 125 ərizə 2015-ci ildə daxil olmuşdur. 115 ərizəyə baxılmışdır, 14 ərizə 2016-cı ilin növbəti ayına qalıq kimi keçmişdir.

2016-cı ili 2015-ci ilin müvafiq dövrü ilə müqayisə etdikdə görünür ki, 2016-cı ildə Respublika Ədliyyə Nazirliyi tərəfindən mülki kollegiyanın icraatında Azərbaycan Respublikasında xarici məhkəmələrin qətnaməsinin tanınması və icrası barədə icraatda 10 (7,8%) ərizə artmışdır.

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin Mülki Kollegiyasının hakimləri bir sıra xarici ölkələrdə ezamiyyətdə olmuş, seminar və konfranslarda iştirak etmiş, mətbuatda məqalələrlə çıxış etmişlər.

O cümlədən:

- Hakim Ə.Mirzəliyev Bakı və Şəki Apellyasiya Məhkəmələrində təşkil olunmuş seminarlarda "Mülki işlərə baxılarkən yol verilən xarakterik nöqsanlar və onların həlli yolları" barədə;

- Hakim V.İbayev Ədliyyə Akademiyası və Ümumi məhkəmə hakimlərinin ictimai birliyinin təşkil etdiyi "Avropa İnsan Hüquqları Konvensiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ" mövzusunda tədris kursunda "Mülkiyyət hüququnun müdafiəsi: Avropa İnsan Hüquqları Konvensiyasından irəli gələn öhdəliklər", Ədliyyə Akademiyasının tədris kurslarında "İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı

maddəsinin (ədalətli məhkəmə araşdırması hüququ) prosessual aspektləri" mövzularında çıxışlar etmişlər.

Mülki Kollegiyanın hakimləri bir sıra xarici ölkələrdə ezamiyyətdə olmuş, seminar və konfranslarda iştirak etmiş, mətbuatda məqalələr dərc etdirmişlər.

Hakimlərdən:

Ə.Mirzəliyev və İ.Xələfov 02-06 mart 2016-cı ildə Ankara şəhərində keçirilən "Mülki prosesin ən əsas prinsipləri səmərəli və ədalətli məhkəmə prosesinin açarı kimi" konfransda;

Ə.Mirzəliyev 2016-cı ilin aprel ayında Ankara şəhərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin xətti ilə Türkiyə Ədliyyə Akademiyasında keçirilmiş seminar müşavirədə;

-2016-cı ildə Məhkəmə Hüququ Şurasının binasında bir qrup hakim üçün "Şəhərsalma və Tikinti Məcəlləsi"nin tətbiqində yol verilmiş xarakterik nöqsanlar barəsində keçirilmiş seminarda;

V.İbayev 10-11 iyun 2016 –cı ildə Naxçıvan şəhərində "Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin aktual məsələlərinə dair" seminarda və 24-28 sentyabr 2016-cı il Strasburq şəhərində "Ədliyyə islahatı üzrə regional dialoq" adlı layihə çərçivəsində işçi qrupların üçüncü mərhələ görüşündə;

Ə.Rüstəmov 2016-cı il 5-9 dekabr tarixlərində Almaniya Federativ Respublikasının Berlin şəhərində "Alman müqavilə hüququ" mövzusunda keçirilən seminarlarda;

A.İsgəndərov və Ə.Nurməmmədov 2016-cı ilin dekabr ayında Strasburq şəhərində Avropa İnsan Hüquqları Məhkəməsində "Beynəlxalq məhkəmələrin təcrübəsində bioetika məsələləri"-nə həsr olunmuş seminarda iştirak etmişlər.

## Ali Məhkəmənin İnzibati-İqtisadi kollegiyası




Ali Məhkəmənin İnzibati-iqtisadi kollegiyasında (bundan sonra «İİK») apellyasiya instansiyası məhkəmələrinin inzibati-iqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyalarının qətnamə, qərar və qərardadlarından verilən kassasiya şikayətinə və işdə iştirak etməyə cəlb olunmayan, lakin məhkəmə aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən apellyasiya instansiyası məhkəmələrinin İnzibati-iqtisadi kollegiyasında qətnamə və qərardadından Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

2016-cı ildə İİK-nın icraatına 3 038 iş olmuşdur ki, bu da 2015-ci ildə icraatda olmuş 2308 işdən 730 iş, yəni (31,6%) çoxdur.

İİK-nın icraatında olan 3 038 işdən 2 247 (74%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 14 (0,4%) iş baxılmadan geri qaytarılmış və ya mümkün sayılmamış, 145 (4,8%) iş üzrə kassasiya şikayəti mümkün sayılmamış, 632 (20,8%) iş isə 2017-ci ilin yanvar ayına qalıq keçirilmişdir.

İİK-da 2015-ci ildə yekun məhkəmə qərarı çıxarılmaqla 1 744 işə baxılmışdırsa, 2016-cı ildə belə işlərin sayı 503 (28,8%) artaraq, 2 247 iş təşkil etmişdir.

İİK-da 2016-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan işlərin təhlili göstərir ki, 2 247 işdən:

- 451 (20,1%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 231 (10,3%) iş Dövlət Sosial Müdafiə Fondunun və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 359 (16%) iş İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 449 (20%) iş vergi ödəmələri üzrə;

- 163 (7,3%) iş borc müqaviləsi üzrə;
- 76 (3,4%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;
- 17 (0,8%) iş sığorta müqaviləsi üzrə;
- qalan 501 (22,3%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış cəmi 2247 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarından:

- 1568 (69,8%) iş üzrə qətnamə, qərar və ya qərardad dəyişdirilmədən saxlanılmışdır;

- 612 (27,2%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:




- 374 (16,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 104 (4,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- 80 (3,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) baxılmamış saxlanılmış və ya mümkün sayılmamış;

- 54 (2,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

- 42 (1,9%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

- 25 (1,1%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2016-cı ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 7.198,80 manat dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasında 2016-cı ildə apellyasiya instansiyası məhkəmələrinin qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

**M Ə L U M A T**

| ***İnzibati-İqtisadi işlər üzrə (ümumi)*** | ***Cəmi baxılmışdır*** | *Qətnamə və ya qərardad qüvvədə saxlanılmışdır* | ***Cəmi ləğv edilmişdir. Onlardan,*** | *Ləğv edilib yenidən baxılması üçün apel.məhkəməsinə göndərilmişdir* | *Ləğv edilib yeni qərar qəbul edilmişdir* | *Ləğv edilib iddia mümkün sayılmamışdır* | *Ləğv edilib icraatına xitam verilmişdir* | ***Cəmi dəyişdirilmişdir*** | *Kassasiya icraatına xitam verilmişdir* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Apellyasiya Məhkəməsi*** | ***1.499*** | ***1.065 71%*** | ***389 26%*** | ***229 15,3%*** | ***80 5,3%*** | ***40 2,7%*** | ***40 2,7%*** | ***28*** | ***17*** | |
| ***Gəncə Apellyasiya Məhkəməsi*** | ***215*** | ***138 64,2%*** | ***73 34%*** | ***48 22,3%*** | ***5 2,3%*** | ***17 8%*** | ***3 1,4%*** | ***2*** | ***2*** | ***-*** |
| ***Sumqayıt Apellyasiya Məhkəməsi*** | ***225*** | ***178 79,1%*** | ***42 18,6%*** | ***27 12%*** | ***7 3,1%*** | ***5 2,2%*** | ***3 1,3%*** | ***4*** | ***1*** | ***-*** |
| ***Şirvan Apellyasiya Məhkəməsi*** | ***140*** | ***80 57,2%*** | ***52 37,2%*** | ***34 24,3%*** | ***4 2,9%*** | ***9 6,4%*** | ***5 3,6%*** | ***5*** | ***3*** | ***-*** |
| ***Şəki Apellyasiya Məhkəməsi*** | ***164*** | ***104 63,4%*** | ***55 33,5%*** | ***35 21,3%*** | ***8 4,9%*** | ***9 5,5%*** | ***3 1,8%*** | ***3*** | ***2*** | |
| ***Naxçıvan MR Ali Məhkəməsi*** | ***4*** | ***3 75%*** | ***1 25%*** | ***1 25%*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | |
| ***AR Apellyasiya Məhkəməsi*** | | | | | | | | | | |
| ***CƏMİ:*** | ***2.247*** | ***1.568 69,8%*** | ***612 27,2%*** | ***374 16,6%*** | ***104 4,6%*** | ***80 3,6%*** | ***54 2,4%*** | ***42 1,9%*** | ***25 1,1%*** | - |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2016-cı ildə 2.247 işə baxıldığı halda, 2015-cı ilin müvafiq dövründə isə 1.744 işə baxılmışdır, bu da 2016-cı ildə baxılmış 503 işin (28,8%) artmasını göstərir. Apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə, qərar və ya qərardadlarının sayı 2016-cı ildə 612 olduğu halda, bu rəqəm 2015-cı ilin müvafiq dövründə isə 506 iş olmuşdur ki, bu da 2016-cı ildə ləğv edilmiş 106 (20,9%) işin artmasını göstərir.

2016-cı ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən 7.198,80 manat dövlət rüsumu ödənilmişdir.Hesabat dövründə İİK-da baxılan işlər üzrə xüsusi qərardad qəbul olunmayıb.

## İnzibati işlər üzrə

2016-ci ildə İİK-nın icraatına 2 458 inzibati iş olmuşdur ki, bu da 2015-ci ildə icraatda olmuş 1 885 işdən 573 iş, yəni 30,4% artmasını göstərir.

İİK-nın icraatında olan 2 458 inzibati işdən 1 757 (71,5%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 145 (5,9%) iş üzrə kassasiya şikayəti mümkün sayılmamış, 556 (22,6%) iş 2017-cı ilin yanvar ayına qalıq keçmişdir.

İİK-da 2016-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 1 757 inzibati işdən:
- 442 (25,2%) iş Əmlak Məsələləri Dövlət Komitəsi və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 231 (13,2%) iş Dövlət Sosial Müdafiə Fondunun və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 354 (20,1%) iş İcra Hakimiyyəti və onun struktur qurumlarının tərəf qismində iştirak etdiyi işlər üzrə;
- 396 (22,5%) iş vergi ödəmələri üzrə;
- qalan 334 (19%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 1 757 inzibati iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

- 1 208 (68,8%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;

- 489 (27,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:

- 293 (16,7%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 88 (5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- 77 (4,4%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə iddia (ərizə) mümkün sayılmamış;

- 31 (1,8%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə icraata xitam verilmiş;

- 38 (2,1%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

- 22 (1,3%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2016-cı ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən 3.173 manat 40 qəpik dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

*Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2016-cı ildə apellyasiya instansiyası məhkəmələrinin inzibati mübahisələrə dair işlər üzrə qətnamə və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında*

**M Ə L U M A T**

| | ***Cəmi baxılmışdır*** | *Qətnamə və ya qərardad qüvvədə saxlanılmışdır* | ***Cəmi ləğv edilmişdir. Onlardan,*** | *Ləğv edilib yenidən baxılması üçün apel.məhkəməsinə göndərilmişdir* | *Ləğv edilib yeni qərar qəbul edilmişdir* | *Ləğv edilib iddia mümkün sayılmamışdır* | *Ləğv edilib icraatına xitam verilmişdir* | ***Cəmi dəyişdirilmişdir*** | *Kassasiya icraatına xitam verilmişdir* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Apellyasiya Məhkəməsi*** | ***1.167*** | ***827<br>70,9%*** | ***300<br>25,7%*** | ***171<br>14,6%*** | ***68<br>5,8%*** | ***38<br>3,3%*** | ***23<br>2%*** | ***25*** | ***15*** | |
| ***Gəncə Apellyasiya Məhkəməsi*** | ***182*** | ***114<br>62,7%*** | ***64<br>35,1%*** | ***41<br>22,5%*** | ***5<br>2,7%*** | ***16<br>8,8%*** | ***2<br>1,1%*** | ***2*** | ***2*** | ***-*** |
| ***Sumqayıt Apellyasiya Məhkəməsi*** | ***166*** | ***125<br>75,3%*** | ***36<br>21,6%*** | ***23<br>13,8%*** | ***6<br>3,6%*** | ***5<br>3%*** | ***2<br>1,2%*** | ***4*** | ***1*** | ***-*** |
| ***Şirvan Apellyasiya Məhkəməsi*** | ***101*** | ***55<br>54,5%*** | ***40<br>39,6%*** | ***27<br>26,7%*** | ***2<br>2%*** | ***9<br>8,9%*** | ***2<br>2%*** | ***4*** | ***2*** | ***-*** |
| ***Şəki Apellyasiya Məhkəməsi*** | ***138*** | ***85<br>61,6%*** | ***48<br>34,8%*** | ***30<br>21,7%*** | ***7<br>5,1%*** | ***9<br>6,5%*** | ***2<br>1,5%*** | ***3*** | ***2*** | |
| ***Naxçıvan MR Ali Məhkəməsi*** | ***3*** | ***2<br>66,7%*** | ***1<br>33,3%*** | ***1<br>33,3%*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | |
| ***AR Apellyasiya Məhkəməsi*** | | | | | | | | | | |
| ***CƏMİ:*** | ***1.757*** | ***1.208<br>68,8%*** | ***489<br>27,8%*** | ***293<br>16,7%*** | ***88<br>5%*** | ***77<br>4,4%*** | ***31<br>1,8%*** | ***38<br>2,1%*** | ***22<br>1,3%*** | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2016-cı ildə 1.757 işə baxıldığı halda, 2015-cı ilin müvafiq dövründə isə 1.399 işə baxılmışdır, bu da 2016-cı ildə baxılmış 358 iş (25,6%) işlərin artmasını göstərir.Apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qərar və ya qərardadların sayı 2016-cı ildə 489 olduğu halda, bu rəqəm 2015-ci ilin müvafiq dövründə isə 396 iş olmuşdur ki, bu da 2016-cı ildə ləğv edilmiş 93 (23,5%) işin artmasını göstərir.

2016-cı ildə kasasiya şikayəti ilə müraciət edənlər tərəfindən 3.173,40 manat dövlət rüsumu ödənilmişdir. Hesabat dövründə İİK-da baxılan işlər üzrə xüsusi qərardad qəbul olunmayıb.

**İqtisadi işlər üzrə**

2016-cı ildə İİK-nın icraatına 580 iqtisadi iş daxil olmuşdur ki, bu da 2015-ci ildə icraatda olmuş 423 işdən 157 (37,1%) iş coxdur.

İİK-nın icraatında olan 580 işdən 490 (84,5%) işə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, 14 (2,4%) iş baxılmadan geri qaytarılmış, 76 (13,1%) iş isə 2017-ci ilin yanvar ayına qalıq keçirilmişdir.

İİK-da 2016-cı ildə yekun məhkəmə qərarı çıxarılmaqla 490 işə baxılmışdırsa, 2015-ci ildə isə 345 işə baxılmışdır ki, bu da 145 (42%) işin artmasını göstərir.

İİK-da 2016-cı ildə yekun hesabat dövründə yekun məhkəmə qərarı çıxarılmaqla baxılan 490 işdən:

- 53 (10,8%) iş vergi ödəmələri;
- 5 (1%) iş torpaq mübahisələrinə dair;
- 163 (33,3%) iş borc mübahisələri;
- 75 (15,3%) iş kredit müqaviləsi və bank əmanəti, bank hesabatı müqaviləsi üzrə;
- 17 (3,5%) iş sığorta müqaviləsi üzrə;
- qalan 177(36,1%) iş isə digər məsələlərlə əlaqədar olmuşdur.

İİK-da kassasiya qaydasında baxılmış 490 iş üzrə çıxarılmış yekun məhkəmə qərarlarının təhlili göstərir ki:

- 360 (73,5%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmədən saxlanılmış;

- 123 (25,1%) iş üzrə qətnamə və ya qərardad ləğv edilmişdir, onlardan:

- 81 (16,5%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş yenidən apellyasiya instansiyası məhkəməsinə qaytarılmış;

- 16 (3,3%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iş üzrə yeni qərar qəbul edilmiş;

- 3 (0,6%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək iddia (ərizə) baxılmamış saxlanılmış;

- 23 (4,7%) iş üzrə qətnamə və ya qərardad ləğv edilərək icraata xitam verilmişdir;

- 4 (0,8%) iş üzrə qətnamə və ya qərardad dəyişdirilmiş;

- 3 (0,6%) iş üzrə isə kassasiya icraatına xitam verilmişdir.

2014-cü ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 4 025 manat 40 qəpik dövlət rüsumu ödənilmişdir.

Bu məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati-iqtisadi kollegiyasında 2016-cı ildə apellyasiya instansiyası məhkəmələrinin iqtisadi işlər üzrə qərar və qərardadlarına kassasiya qaydasında baxılma nəticələri haqqında***

# M Ə L U M A T

| | **Cəmi baxılmışdır** | *Qətnamə və ya qərardad qüvvədə saxlanılmışdır* | **Cəmi ləğv edilmişdir. Onlardan,** | *Ləğv edilib yenidən baxılması üçün apel.məhkəməsinə göndərilmişdir* | *Ləğv edilib yeni qərar qəbul edilmişdir* | *Ləğv edilib baxılmamış saxlanılmışdır* | *Ləğv edilib icraatına xitam verilmişdir* | **Cəmi dəyişdirilmişdir** | *Kassasiya icraatına xitam verilmişdir* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| *Bakı Apellyasiya Məhkəməsi* | *332* | *238 71,7%* | *89 26,8%* | *58 17,5%* | *12 3,6%* | *2 0,6%* | *17 5,1%* | *3* | *2* | |
| *Gəncə Apellyasiya Məhkəməsi* | *33* | *24 72,7%* | *9 27,2%* | *7 21,2%* | *-* | *1 3%* | *1 3%* | *-* | *-* | *-* |
| *Sumqayıt Apellyasiya Məhkəməsi* | *59* | *53 89,8%* | *6 10,2%* | *4 6,8%* | *1 1,7%* | *-* | *1 1,7%* | *-* | *-* | *-* |
| *Şirvan Apellyasiya Məhkəməsi* | *39* | *25 64,1%* | *12 30,7%* | *7 17,9%* | *2 5,1%* | *-* | *3 7,7%* | *1* | *1* | *-* |
| *Şəki Apellyasiya Məhkəməsi* | *26* | *19 73%* | *7 26,9%* | *5 19,3%* | *1 3,8%* | *-* | *1 3,8%* | *-* | *-* | |
| *Naxçıvan MR Ali Məhkəməsi* | *1* | *1 100%* | *-* | *-* | *-* | *-* | *-* | *-* | *-* | |
| *AR Apellyasiya Məhkəməsi* | | | | | | | | | | |
| *CƏMİ:* | *490* | *360 73,5%* | *123 25,1%* | *81 16,5%* | *16 3,3%* | *3 0,6%* | *23 4,7%* | *4 0,8%* | *3 0,6%* | |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən olunmuşdur ki, Ali Məhkəmənin İİK-da 2016-cı ildə 490 işə baxıldığı halda, 2015-ci ilin müvafiq dövründə isə 345 işə baxılmışdır ki, bu da 2016-ci ildə baxılmış 145 iş (42%) artmasını göstərir.Qeyd olunan statistik məlumatları müqayisə etdikdə görünür ki, apellyasiya instansiyası məhkəmələrinin ləğv edilmiş qətnamə və ya qərardadların sayı 2016-cı ildə 123 olduğu halda, 2015-ci ilin müvafiq dövründə isə bu rəqəm 110 iş olmuşdur ki, bu da 13 ləğv edilmiş işin (11,8%) artmasını göstərir.

2016-ci ildə kassasiya şikayəti ilə müraciət edənlər tərəfindən 4.025,40 manat dövlət rüsumu ödənilmişdir.Hesabat dövründə İİK-da baxılan işlər üzrə xüsusi qərardad qəbul edilməmişdir.

Kollegiyanın sədri Hikmət Mirzəyev Azərbaycan Respublikası Prezidentinin 27.12.2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nın seçki komissiyalarına aid olan hissədə icrası ilə bağlı 18.08.2016-cı il tarixdə Mərkəzi Seçki Komissiyasında dairə seçki komissiyalarının sədrləri üçün təşkil olunan seminar müşavirədə iştirak etmişdir.

H.Mirzəyev 2016-cı il ərzində vətəndaşların qəbulu ilə əlaqədar 28 nəfər şikayətçini qəbul edərək onların şikayətlərini öyrənmiş, şikayətlərlə əlaqədar müvafiq işləri tələb etməklə izahatlar vermişdir.

Kollegiyanın hakimləri tərəfindən mütəmadi olaraq İnzibati Prosessual və Mülki Prosessual Məcəllələrin təkmilləşdirilməsi ilə bağlı müzakirələr edilərək təkliflər hazırlanır.

2016-cı il ərzində kollegiyanın hakimləri müxtəlif konfrans və seminarlarda iştirak etmişlər.

O cümlədən:

Hakim Zakir Quliyev:

- Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai Birliyi (Assosiasiyası) tərəfindən hakimlərin davamlı tədrisinin təşkili işi çərçivəsində 2016-cı ilin may ayında Şəki və Gəncə şəhərlərində təlimdə;

- 06-09 dekabr 2016-cı il tarixlərdə Almaniya Federativ Respublikasının Berlin şəhərində “Almaniyanın müqavilə hüququ” mövzusuna dair seminarda iştirak etmişdir.

Hakim İlqar Hüseynov 21-22 iyun 2016-cı il tarixlərdə Almaniya Federativ Respublikasının Leypsiq Universitetinin və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə təşkil etdikləri “İnzibati və inzibati-prosessual hüquq” üzrə Forumda iştirak etmişdir.

Hakim Sevda Hüseynova:

- 2016-cı ilin fevral ayında Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəmə Hakimlərinin İctimai birliyinin iclasında, aprel ayında Ədliyyə Akademiyasında birinci instansiya məhkəmələrinin hakimləri üçün tədrisin aparılmasında;

-2016-cı ilin iyun ayında “İnzibati prosesində hakimlərin iş metodikasının səmərəliliyinin artırılması” mövzusunda Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən Ədliyyə Akademiyasında keçirilən təlimdə iştirak və çıxış etmişdir.

Hakim X.Məmmədov Türkiyə Respublikasının İstanbul şəhərində 02-06 may 2016-cı il tarixlərdə Beynəlxalq Yüksək İnzibati Məhkəmələr Birliyinin 12-ci Konfransında və Avropa Birliyi, Avropa Şurası və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən layihəyə uyğun olaraq Avropa Konvensiyasının 8-ci maddəsi və 1 saylı Protokolun 1-ci maddəsi ilə bağlı hakimlər üçün keçirilən təlimdə təlimçi-məruzəçi kimi iştirak etmişdir.

## 3. Ali Məhkəmənin Cinayət kollegiyası




Ali Məhkəmənin Cinayət kollegiyasında (bundan sonra «CK») apellyasiya instansiyası məhkəmələrinin cinayət kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və ya kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəməsinin cinayət işləri və inzibati xətalara dair işlər üzrə məhkəmə kollegiyasının hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

CK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işləri, məhkəməyədək sadələşdirilmiş və ya xüsusi ittiham qaydasında şikayət üzrə materiallar istisna olmaqla, qalan işlərə (materiallara) kassasiya qaydasında baxılır.

2016-cı il ərzində CK-da cəmi 2 671 nəfər haqqında 2 409 iş icraatda olmuşdur. Bunlardan 2 204 (82,5%) nəfər haqqında 1 953 (81,1%) iş kassasiya şikayətinə, 467 (17,5%) nəfər haqqında 456 (18,9%) iş kassasiya protestinə əsasən daxil olmuşdur.

2016-cı ildə CK-na daxil olmuş 2 671 nəfər haqqında 2 409 işdən 2 126 (79,6%) nəfər haqqında 1 886 (78,3%) cinayət işi üzrə kassasiya şikayəti və protestinə baxılmaqla yekun məhkəmə qərarı çıxarılmış, 545 (20,4%) nəfər haqqında 523 (21,7%) iş isə baxılması üçün 2017-ci ilə keçirilmişdir.

2016-cı ildə CK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə 2 126 nəfər haqqında olan 1 886 işə baxılaraq, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

Cəmi 278 (13%) nəfər haqqında 237 (12,6%) iş üzrə qərarları ləğv olunmuşdur. Onlardan:




- 271 (12,7%) nəfər haqqında 230 (12,9%) iş üzrə qərarları ləğv olunmuş və yeni apellyasiya baxışına qaytarılmış;

- 7 (0,3%) nəfər haqqında 3 (0,4%) iş üzrə qərarları ləğv olunaraq kassasiya icraatına xitam verilmiş;

- 136 (6,4%) nəfər haqqında 116 (6,2%) iş üzrə qərarları dəyişdirilmiş;

- 5 (0,2%) nəfər haqqında 4 (0,2%) iş üzrə kassasiya icraatına xitam verilmiş;

- 83 (3,9%) nəfər haqqında olan 76 (4%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;

- 254 (11,9%) nəfər haqqında 228 (12,1%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;

- 109 (5,1%) nəfər haqqında 108 (5,7%) iş üzrə kassasiya şikayəti və protesti baxılmamış saxlanılmış;

- 1 261 (59,3%) nəfər haqqında 1 117 (59,2%) iş üzrə qərarları isə dəyişdirilmədən saxlanılmışdır.

Cəmi 3 iş üzrə xüsusi qərar qəbul edilmişdir.

### *Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasında 2016-cı ildə apelyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair*

## M Ə L U M A T

| | **Cəmi baxılmışdır** | *Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı)* | **Cəmi ləğv edilmişdir. Onlardan,** | *Ləğv edilib yenidən baxılması üçün göndərilmişdir* | *Ləğv edilib İcraatına xitam verilmiş işlər* | **Cəmi dəyişdirilmişdir** | *Kassasiya icraatına xitam verilmişdir* | *Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir* | *Kas.şikayəti və kas.protesti qeri qaytarılıb* | *Kas.şikayəti və kas.protesti baxılmamış saxlanılıb* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Apellyasiya Məhkəməsi*** | ***990*** | ***621 62,7%*** | ***105 10,6%*** | ***101 10,2%*** | ***4 0,4%*** | ***72 7,3%*** | ***2*** | ***41*** | ***140*** | ***9*** | ***2*** |
| ***Gəncə Apellyasiya Məhkəməsi*** | ***245*** | ***163 66,5%*** | ***34 13,9%*** | ***32 13,1%*** | ***2 0,6%*** | ***12 4,9%*** | ***2*** | ***8*** | ***25*** | ***1*** | |
| ***Sumqayıt Apellyasiya Məhkəməsi*** | ***288*** | ***174 60,4%*** | ***57 19,8%*** | ***56 19,4%*** | ***1 0,3%*** | ***18 6,3%*** | ***-*** | ***15*** | ***21*** | ***3*** | |
| ***Şirvan Apellyasiya Məhkəməsi*** | ***370*** | ***232 62,7%*** | ***65 17,6%*** | ***65 17,6%*** | ***-*** | ***20 5,4%*** | ***1*** | ***10*** | ***38*** | ***4*** | |
| ***Şəki Apellyasiya Məhkəməsi*** | ***136*** | ***69 50,7%*** | ***17 12,5%*** | ***17 12,5%*** | ***-*** | ***14 10,3%*** | ***-*** | ***8*** | ***27*** | ***1*** | ***1*** |
| ***Naxçıvan MR Ali Məhkəməsi*** | ***3*** | ***2 66,7%*** | | | | | | | ***1*** | | |
| ***AR Apellyasiya Məhkəməsi*** | ***1*** | | | | | | | ***1*** | | | |
| ***Materiallar üzrə*** | ***93*** | | | | | | | | ***2*** | ***91*** | |
| ***CƏMİ:*** | ***2.126*** | ***1.251 59,3%*** | ***278 13%*** | ***271 12,7%*** | ***7 0,7%*** | ***136 6,4%*** | ***5*** | ***83*** | ***254*** | ***109*** | ***3*** |

**QEYD:** QEYD: Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin CK-da 2016-cı ildə 2 126 nəfər haqqında 1 886 işə baxıldığı halda, 2015-ci ilin müvafiq dövründə isə 2 110 nəfər haqqında 1 856 işə baxılmışdır ki, bu da 2016-cı ildə baxılmış işlərin sayına görə 30 iş (1,6%), şəxslərin sayına görə isə 16 (0,8%) nəfərin artmasını göstərir. 2016-cı ildə 298 nəfər haqqında 237 iş ləğv olunduğu halda, 2015-ci ilin müvafiq dövründə isə 329 nəfər haqqında 254 iş ləğv olunmuşdur ki, bu da 2016-cı ildə ləğv olunmuş 17 işin (6,7%), 31 (9,4%) nəfər barəsində ləğvin azalmasını göstərir.Hesabat dövründə CK-da baxılan işlər üzrə 3 xüsusi qərar qəbul edilmişdir

Məlumatın əhatə etdiyi dövrdə Cinayət kollegiyasının hakimləri konkret işlərə baxmaqla yanaşı Ali Məhkəmə tərəfindən müəyyən işlərin görülməsində, müzakirəyə göndərilmiş qanun layihələrinə dair rəy və təkliflərin verilməsində, Plenum qərarlarının və digər sənədlərin hazırlanmasında, bir sıra tədbirlərin keçirilməsində yaxından iştirak etmişlər.

Belə ki, 2016-cı ildə Cinayət kollegiyasının hakimləri tərəfindən ümumilikdə 107 əlavə kassasiya şikayətləri və yeni açılmış hallar üzrə ərizələrlə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, Əfv komissiyasından daxil olmuş materiallar əsasında 492 rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.

02 iyun 2016-cı il tarixdə keçirilmiş Ali Məhkəmənin Plenumunda Cinayət kollegiyasının təkliflərinə əsasən "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarı qəbul edilmiş və Milli Məclisə təqdim olunmuş, Plenumda "Qaçaqmalçılıqla bağlı cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Plenum qərarı qəbul olunmuş, habelə bu işlərin ümumiləşdirilməsinin nəticəsi olaraq məhkəmələrə icmal məktub göndərilmişdir.

Hakim İ.Hacıqayıbov BMT-nin "Ağır və transmilli xarakterli cinayətlərin qarşısının alınması və onlara qarşı mübarizədə dövlətlərin potensialının gücləndirilməsi" adlı Qlobal Proqramı çərçivəsində 2016-cı ilin mart ayının 15-17 tarixlərində Özbəkistanın Daşkənd şəhərində keçirilmiş "Cinayət işlərinin istintaqı və mühakiməsi zamanı elektron dəlillərin əldə edilməsi və istifadəsi" mövzusuna həsr edilmiş növbəti regionlararası tədris seminarında və Ali Məhkəmənin nümayəndəsi kimi Prokurorluq orqanlarına işə qəbulla bağlı 12 iyun 2016-cı il tarixdə test imtahanlarının keçirilməsində iştirak etmişdir.

Hakim Ə.Seyfəliyev Gürcüstan Respublikasının Tbilisi şəhərində keçirilən "Terrorizm, qanunvericilik və məhkəmə təcrübəsi. Terrorizmlə mübarizədə və cinayət siyasətində yeni yanaşmalar" adlı yüksək səviyyəli Beynəlxalq Konfransda azərbaycan nümayəndə heyətinin tərkibində 02-03 noyabr 2016-cı il tarixdə keçirilən iclasda iştirak etmişdir.

Hakim F.Kərimov Ali Məhkəmənin nümayəndəsi kimi Prokurorluq orqanlarına işə qəbulla bağlı 10 avqust 2016-cı il tarixdə keçirilmiş yazılı imtahanda və 10 noyabr 2016-cı ildə Bakı şəhərində keçirilmiş "Vergilər Nazirliyində elektron cinayət işinin tətbiqi" mövzusunda keçirilmiş təqdimatda iştirak etmişdir.

Hakim H.Nəsibov Nəsimi Rayon Məhkəməsinin hakiminin Konstitusiya Məhkəməsinə müraciəti ilə bağlı (inzibati xəta haqqında iş üzrə icraatın iştirakçısı olmayan şəxsin bu icraatda qəbul edilmiş qərarlardan şikayət vermək hüququna malik olub-olmaması məsələsi) Konstitusiya Məhkəməsinin Plenumunun 30 sentyabr 2016-cı il tarixli iclasında ekspert qismində və Azərbaycan

Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinin, o cümlədən Cinayət Məcəlləsininə təklif olunan 71-1-ci maddənin (Narkomanlıq xəstəliyinə düçar olan şəxsin şərti məhkum edilməsi) hazırlanmasında və Nazirlər Kabineti Aparatının Hərbi və İnzibati Orqanlar şöbəsində müzakirəsində 2016-cı ilin oktyabr ayında iştirak etmişdir.

Hesabat dövründə Cinayət Kollegiyasının sədri Şahin Yusifov kollegiyanın icraatında olan işlər üzrə Ali Məhkəmənin sədrinə ünvanlanmış ərizə və şikayətlərlə bağlı 29 nəfəri qəbul etmişdir.

Həmçinin 2016-cı il ərzində vətəndaşlar, müxtəlif hökümət və qeyri-hökümət təşkilatlarından daxil olmuş 50-dən çox ərizə və sorğuya cavab verilmiş, Ali Məhkəməyə Azərbaycan Respublikası Nazirlər Kabinetindən daxil olmuş "İctimai təhlükəli əməllər törətmiş, psixi pozuntusu olan şəxslər barəsində təyin edilmiş tibbi xarakterli məcburi tədbirlərin tətbiqi Qaydaları"nın layihəsi və bununla bağlı Nazirlər Kabinetinin qərar layihəsinə dair əlavə və təkliflər hazırlanaraq Baş Nazirin müavininə, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil omuş "Azərbaycan Respublikasının Cinayət- Prosessual Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə dair təkliflər hazırlanaraq Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyindən daxil olmuş "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 dekabr tarixli 706 nömrəli Fərmanının icrası məqsədilə hazırlanmış "Cinayət törətməkdə şübhəli və ya təqsirləndirilən, məhkum olunmuş, inzibati qaydada həbs edilmiş, habelə dövlət daktiloskopik qeydiyyatından keçən şəxslərin mərkəzləşdirilmiş fərdi uçotlarının təşkili və aparılması qaydaları barədə" və "Azərbaycan Respublikasında cinayətlərin vahid uçotunun aparılması qaydaları haqqında" Təlimatların yeni layihələrinə dair rəy hazırlanaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinə, Nazirlər Kabinetindən daxil olmuş "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihəsinə dair təkliflər hazırlanaraq Baş Nazirin müavininə, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil omuş BMT-nin İnsan hüquqları üzrə xüsusi məruzəçisi Mişel Forstun bəyanatına dair mülahizələr hazırlanaraq Xarici İşlər Nazirliyinə, Nazirlər Kabinetindən daxil olmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın icrası ilə bağlı hazırlanmış qanun layihələrinə dair rəy hazırlanaraq Nazirlər Kabinetinə, Nazirlər Kabinetindən daxil olmuş "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2016-2018-ci illər)"na dair təkliflər hazırlanaraq Baş Nazirin müavininə, Nazirlər Kabinetindən daxil olmuş Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən hazırlanmış "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Azərbaycan Respublikası Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" qanun layihələrinə dair rəy hazırlanaraq Nazirlər

Kabinetinə, Nazirlər Kabinetindən daxil olmuş Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə 131.3-cü maddənin əlavə edilməsi haqqında təklifinə dair rəy hazırlanaraq Nazirlər Kabinetinə, Xarici İşlər Nazirliyindən daxil olmuş Avropa Şurasının Azərbaycan üçün 2016-2018-ci illər üzrə Fəaliyyət Planının indiki dövrə qədər icrası vəziyyəti ilə bağlı görülmüş tədbirlər haqqında məlumat hazırlanaraq Xarici İşlər Nazirliyinə, Xarici İşlər Nazirliyindən daxil olmuş Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq tərəfdaşlığı ölkələrində həyata keçirilən "Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi"ndə "Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun tətbiqi" layihəsi ilə əlaqədar hazırlanmış Ehtiyacların Qiymətləndirilməsi Hesabatına dair rəy hazırlanaraq Xarici İşlər Nazirliyinə, Nazirlər Kabinetindən daxil olmuş "İnzibati xəta haqqında iş üzrə icraat zamanı götürülmüş odlu silahın, onun patronlarının, digər silahın və döyüş sursatının saxlanması Qaydaları"nın layihəsi və həmin Qaydaların təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin Qərar layihəsinə dair təkliflər hazırlanaraq Nazirlər Kabinetinə, Nazirlər Kabinetindən daxil olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış birgə müraciətinə dair təkliflər hazırlanaraq Baş Nazirin müavininə, Nazirlər Kabinetindən daxil omuş Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin külli miqdarda narkotik vasitələrin məhkəmə qərarları çıxarılanadək məhv edilməsi haqqında müraciətinə dair rəy hazırlanaraq Baş Nazirinin müavininə, Nazirlər Kabinetindən daxil olmuş "Əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, hamilə qadınlar və südəmər uşaqları olan analar, 60 yaşından yuxarı olan kişilər və 55 yaşından yuxarı olan qadınlar, eləcə də siyahısı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş xəstəlikləri olan cinayət törətmiş narkomanlar barəsində məcburi müalicə Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2000-ci il 10 oktyabr tarixli 186 nömrəli qərarının ləğv edilməsi barədə", "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar 21 nömrəli qərarı ilə təsdiq edilmiş "Narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin Şərtləri və Qaydaları"nda dəyişiklik edilməsi haqqında", "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 9 fevral tarixli 39 nömrəli qərarı ilə təsdiq edilmiş "Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 27 iyun tarixli 209 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə edən şəxsin sərxoşluq vəziyyətinin müəyyən edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərar layihələri öyrənilərək hazırlanmış rəy Baş Nazirin müavininə, Nazirlər Kabinetindən daxil olmuş Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2007-ci il tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik

vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqram"ın icrası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəyləri əsasında hazırlanmış "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi haqqında" Qanun layihələrinə dair tərkliflər hazırlanaraq Nazirlər Kabinetinə, Nazirlər Kabinetindən daxil olmuş "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 29 dekabr 2015-ci il tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 15 fevral 2016-cı il tarixli 795 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə hazırlanmış layihələrə dair təkliflər hazırlanaraq Nazirlər Kabinetinə, Nazirlər Kabinetindən daxil olmuş "Azərbaycan Respublikası Cinayət və İnzibati Xətalar Məcəllələrinə dəyişikliklər edilməsi haqqında" qanun layihələrinə dair rəy və təkliflər hazırlanaraq Baş Nazirin müavininə göndərilmişdir.

Cinayət Kollegiyasının sədri Şahin Yusifov 8-13 may 2016-cı il tarixdə Estoniya Respublikasında Avropa Şurası və Avropa İttifaqı Proqram Əməkdaşlığı Çərçivəsində Estoniyanın məhkəmə sistemi ilə tanışlıq xarakteri daşıyan təlim səfərində olmuşdur.

Şahin Yusifov həmçinin 21 may 2016-cı il tarixində Şəki Məhkəmə Kompleksində və 11 iyun 2016-cı il tarixində Naxçıvan Şəhər Məhkəməsində Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən "İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri və mülki və inzibati-iqtisadi işlərə baxılması zamanı yaranan problemlər və onların həlli yolları" mövzusunda keçirilmiş, seminarda iştirak və çıxış etmişdir.

## 4. Ali Məhkəmənin Hərbi kollegiyası

Ali Məhkəmənin Hərbi kollegiyasında (bundan sonra «HK») apellyasiya instansiyası məhkəmələrinin hərbi kollegiyalarının çıxardıqları hökm və qərarlardan verilən kassasiya şikayətinə və kassasiya protestinə, həmçinin işdə iştirak etməyə cəlb olunmayan, lakin apellyasiya instansiyası məhkəmələrinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyalarının çıxardıqları hökm və ya digər yekun aktı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən Ali Məhkəmənin sədrinin verdiyi təqdimata baxılır.

HK-da müharibə və hərbi xidmət əleyhinə olan, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayət işlərinə kassasiya qaydasında baxılır.

2016-cı ildə HK-da cəmi 181 nəfər haqqında olan 154 cinayət işi icraatda olmuşdur.

HK-nın icraatında olan 181 nəfər haqqında 154 cinayət işindən 159 (87,8%) nəfər haqqında 139 (90,3%) iş kassasiya şikayəti, 22 (12,2%) nəfər haqqında 15 (9,7%) iş isə kassasiya protesti ilə əlaqədar olmuşdur.

Həmin dövrdə HK-ya daxil olmuş 181 nəfər haqqında olan 154 cinayət işindən: 146 (80,7%) nəfər haqqında 122 (79,2%) cinayət işinə yekun məhkəmə qərarı çıxarılmaqla baxılmış, kassasiya şikayəti və protesti üzrə 35 (19,3%) nəfər haqqında 32 (20,8%) cinayət işi isə 2017-ci ilə qalıq keçmişdir.

2016-cı ildə HK-da ümumilikdə kassasiya qaydasında mahiyyəti üzrə 146 nəfər haqqında olan 122 işə baxılaraq, çıxarılmış yekun məhkəmə qərarları ilə apellyasiya instansiyası məhkəmələrinin:

Cəmi 14 (9,6%) nəfər haqqında 13 (10,7%) iş üzrə qərarı ləğv olunmuş və yeni apellyasiya baxışına qaytarılmış;

- 15 (10,3%) nəfər haqqında 15 (12,3%) iş üzrə qərarlar dəyişdirilmiş;
- 1 (0,7%) nəfər haqqında 1 (0,8%) iş üzrə kassasiya icraatına xitam verilmiş;
-24 (16,4%) nəfər haqqında 20 (16,4%) iş üzrə olan kassasiya şikayəti məhkumların və onların müdafiəçilərinin ərizələrinə əsasən geri qaytarılmışdır;
- 5 (3,4%) nəfər haqqında 5 (4%) iş üzrə kassasiya şikayəti və protesti baxılmamış saxlanılmış;
-3 (2%) nəfər haqqında olan 3 (2,5%) iş üzrə kassasiya şikayəti verilmə müddəti bərpa olunmamış;
-84 (57,5%) nəfər haqqında 65 (53,3%) iş üzrə apellyasiya instansiyası məhkəmələrinin qərarları dəyişdirilmədən saxlanılmışdır.

Hesabat dövründə HK-da baxılan işlər üzrə xüsusi qərar qəbul edilməmişdir. !

Qeyd olunan məlumatlar apellyasiya instansiyası məhkəmələri üzrə ayrı-ayrılıqda aşağıdakı cədvəldə əks olunmuşdur.

***Azərbaycan Respublikası Ali Məhkəməsinin Hərbi kollegiyasında 2016-cı ildə apellyasiya instansiyası məhkəmələrinin hökm və qərarlarına kassasiya qaydasında baxılması nəticələrinə dair***

**M Ə L U M A T**

| ***2016 il***<br><br>***Hərbi*** | ***Cəmi baxılmışdır*** | *Hökm və ya qərar dəyişdirilmədən saxlanılmışdır (şəxslərin sayı)* | ***Cəmi ləğv edilmişdir. Onlardan,*** | *Ləğv edilib yenidən baxılması üçün göndərilmişdir* | *Ləğv edilib İcraatına xitam verilmiş işlər* | ***Cəmi dəyişdirilmişdir*** | *Kassasiya icraatına xitam verilmişdir* | *Kassasiya şikayəti və ya kassasiya protesti vermə müddəti bərpa edilməmişdir* | *Kas.şikayəti və kas.protesti qeri qaytarılıb* | *Kas.şikayəti və kas.protesti baxılmamış saxlanılıb* | *Xüsusi qərar çıxarılmışdır* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ***Bakı Apellyasiya Məhkəməsi*** | ***36*** | ***24<br>66,7%*** | ***5<br>13,9%*** | ***5<br>13,9%*** | ***-*** | ***-*** | ***-*** | ***1*** | ***6*** | ***-*** | ***-*** |
| ***Gəncə Apellyasiya Məhkəməsi*** | ***56*** | ***32<br>57,2%*** | ***4<br>7,1%*** | ***4<br>7,1%*** | ***-*** | ***7<br>12,5%*** | ***-*** | ***2*** | ***10*** | ***1*** | ***-*** |
| ***Sumqayıt Apellyasiya Məhkəməsi*** | ***8*** | ***7<br>87,5%*** | ***1<br>12,5%*** | ***1<br>12,5%*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** |
| ***Şirvan Apellyasiya Məhkəməsi*** | ***26*** | ***16<br>61,5%*** | ***4<br>15,4%*** | ***4<br>15,4%*** | ***-*** | ***5<br>19,2%*** | ***1*** | ***-*** | ***-*** | ***-*** | ***-*** |
| ***Şəki Apellyasiya Məhkəməsi*** | ***9*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***3<br>33,3%*** | ***-*** | ***-*** | ***6*** | ***-*** | ***-*** |
| ***Naxçıvan MR Ali Məhkəməsi*** | ***6*** | ***5<br>83,3%*** | ***--*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***-*** | ***1*** | ***-*** | ***-*** |
| ***AR Apellyasiya Məhkəməsi*** | ***1*** | | | | | | | ***-*** | ***1*** | | |
| ***Materiallar üzrə*** | ***4*** | | | | | | | | | ***4*** | |
| ***CƏMİ:*** | ***146*** | ***84<br>57,5%*** | ***14<br>9,6%*** | ***14<br>9,6%*** | ***-*** | ***15<br>10,3%*** | ***1*** | ***3*** | ***24*** | ***5*** | ***-*** |

**QEYD:** Aparılmış təhlil nəticəsində müəyyən edilmişdir ki, Ali Məhkəmənin HK-da 2016-cı ildə 146 nəfər haqqında 122 işə baxıldığı halda, 2015-ci ilin müvafiq dövründə isə 151 nəfər haqqında 135 işə baxılmışdır ki, bu da 2016-ci ildə baxılmış 5 (3,3%) nəfər haqqında 13 (9,6%) işin azalmasını göstərir.

2016-cı ildə 14 nəfər haqqında 13 iş ləğv olunduğu halda, 2015-ci ilin müvafiq dövründə isə 11 nəfər haqqında 8 iş ləğv olunmuşdur ki, bu da 2016-ci ildə ləğv olunmuş 3 (27,3%) nəfər haqqında 5 (62,5%) işin artmasını göstərir.

Hərbi kollegiyanın hakimləri hesabat dövründə konkret işlərə baxmaqla yanaşı Ali Məhkəmə tərəfindən müəyyən işlərin görülməsində, müzakirəyə göndərilmiş qanun layihələrinə rəy və təkliflərin verilməsində və Plenum qərarlarının və digər sənədlərin hazırlanmasında, bir sıra tədbirlərin həyata keçirilməsində yaxından iştirak etmişlər.

Belə ki, 2015-ci ildə Hərbi kollegiyanın hakimləri tərəfindən ümumilikdə 7 əlavə kassasiya şikayəti ilə bağlı qərar layihələri hazırlanaraq Ali Məhkəmənin sədrinə təqdim olunmuş, əfv komissiyasından daxil olmuş materiallar əsasında 171 rəy hazırlanaraq Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq Mühafizə Orqanları ilə İş Şöbəsinin əfv məsələləri üzrə sektoruna göndərilmişdir.






## *5. Ali Məhkəmənin Plenumu*

### Ali Məhkəmənin Plenumunun işi haqqında məlumat

**2016-cı ildə** Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun **altı** iclası keçirilmişdir.

**22 yanvar 2016-cı il tarixli** Plenum iclasında Ali Məhkəmənin kollegiyalarının 2015-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsinə dair məlumatları nəzərə alınmış və Azərbaycan Respublikası Ali Məhkəməsinin 2016-cı ilin I yarısına dair iş planı təsdiq edilmişdir.

**28 mart 2016-cı il tarixli** Plenum iclasında Nikahın pozulması və yetkinlik yaşına çatmamış uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarları qəbul edilmişdir.

**20 may 2016-cı il tarixli** Plenum iclasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında və Azərbaycan Respublikası Ali Məhkəməsi məhkəmə kollegiyalarının tərkibinin yenidən təşkili barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarları qəbul edilmişdir.

**02 iyun 2016-cı il tarixli** Plenum iclasında "Qaçaqmalçılıq işləri üzrə məhkəmə təcrübəsi haqqında", Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikasının Milli Məclisinə təkliflər verilməsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenum qərarları qəbul edilmişdir.

**16 sentyabr 2016-cı il tarixli** və **16 dekabr 2016-cı il tarixli** Plenum iclaslarında konkret işlərə baxılmışdır.

Plenum iclaslarında 20 mülki mübahisəyə baxılıb müvafiq qərarlar çıxarılmışdır. Mülki işlərdən səkkizi Konstitusiya Məhkəməsinin qərarına, dördü yeni açılmış hallara dair ərizəyə və beşi Sədrin təqdimatına, ikisi əlavə kassasiya şikayətinə əsasən baxılmışdır.Bir mülki işə isə Plenum qərarında yol verilmiş yanlışlığın aradan qaldırılmasına dair baxılmışdır.

Konstitusiya Məhkəməsinin qərarına və Ali Məhkəmənin Sədrinin təqdimatına əsasən baxılmış mülki işlər üzrə kassasiya instansiyası məhkəməsinin və apellyasiya instansiyası məhkəməsinin qərarları ləğv edilərək, doqquz iş yeni apellyasiya baxışına, iki iş yeni məhkəmə tərkibinə göndərilmiş, iki təqdimat təmin edilməmişdir. Yeni açılmış hallar üzrə ərizə təmin edilərək üç mülki iş baxılması üçün birinci instansiya məhkəməsinə, bir mülki iş isə baxılması üçün Ali Məhkəmənin mülki kollegiyasına göndərilmişdir.

Əlavə kassasiya şikayətləri təmin edilərək bir iş yeni apellyasiya baxışına göndərilmiş, digər mülki iş üzrə Ali Məhkəmənin qərarı hissəvi ləğv edilmişdir.

Dörd inzibati işə Konstitusiya Məhkəməsinin qərarına əsasən baxılmış, üç inzibati iş yeni apellyasiya baxışına, bir iş yeni kassasiya baxışına göndərilmişdir.

Üç cinayət işi üzrə əlavə kassasiya protestləri təmin edilərək kassasiya instansiya məhkəməsinin müvafiq qərarları dəyişdirilmişdir.

Ali Məhkəmənin Sədrinin təqdimatı və yeni açılmış hallar üzrə ərizə əsasında iki iqtisadi işə baxılmış, bir iş yeni kassasiya baxışına, digəri isə yenidən baxılması üçün birinci instansiya məhkəməsinə göndərilmişdir.

## *2016-cı ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda Ali Məhkəmə hakimlərinin məruzəsi və sədrliyi ilə baxılmış işlər üzrə qərarların ləğv edilməsi və dəyişdirilməsi barədə*

## M Ə L U M A T

| № | *Hakimlər* | *Əlavə kassasiya şikayətinə (protestinə) əsasən* | *Yeni açılmış hallar üzrə* | *Təqdimata əsasən* | *Konstitusiya Məhkəməsinin qərarlarına əsasən* | *Avropa Məhkəməsinin qərarına əsasən* | *Cəmi* |
|---|---|---|---|---|---|---|---|
| | *Mülki iş* | | | | | | |
| 1 | *Rəşadət Ağayev* | | 1 | 1 | 3 | | 5 |
| 2 | *Aslan Kalbalıyev* | | | 1 | | | 1 |
| 3 | *Tatyana Qoldman* | 2 | | | 1 | | 3 |
| 4 | *Ələsgər Əliyev* | | 1 | 1 | 1 | | 2 |
| 5 | *Əli Rüstəmov* | | | | 1 | | 1 |
| 6 | *Əhməd Əhmədov* | | 1 | 1 | 1 | | 3 |
| 7 | *Ənvər Şadiyev* | | 1 | | 1 | | 2 |
| 8 | *İlqar Xələfov* | | | 1 | | | 1 |
| | *CƏMİ* | 2 | 4 | 5 | 8 | | 19 |
| | *İnzibati iş* | | | | | | |
| 1 | *İlqar Hüseynov* | | | | 1 | | 1 |
| 2 | *Azər Hüseynov* | | | | 1 | | 1 |
| 3 | *Rahib Nəbizadə* | | | | 1 | | 1 |
| 4 | *İlqar Dadaşov* | | | | 1 | | 1 |
| | *CƏMİ* | | | | 4 | | 4 |
| | *İqtisadi mübahisə* | | | | | | |
| 1 | *Azər Hüseynov* | | 1 | | | | 1 |
| 2 | *İlqar Hüseynov* | | | 1 | | | 1 |
| | *CƏMİ* | | 1 | 1 | | | 2 |
| | *Cinayət işi* | | | | | | |
| 1 | *İmran Hacıqayıbov* | 1 | | | | | 1 |
| 2 | *Gülzar Rzayeva* | 1 | | | | | 1 |
| 3 | *Fərhad Əliyev* | 1 | | | | | 1 |
| | *CƏMİ* | 3 | | | | | 3 |

## Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi

Ali Məhkəmənin fəaliyyətinin hüquqi, təşkilati, informasiya, maddi-texniki, maliyyə və təsərrüfat təminatını həyata keçirmək üçün məhkəmə Aparatı və İşlər İdarəsi fəaliyyət göstərir.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi öz səlahiyyətlərinə görə Ali kateqoriya dövlət orqanının məhkəmə aparatıdır, inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularından ibarətdir.

«Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanı ilə ölkəmizin məhkəmə sisteminin inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır.

Ali Məhkəmənin və bütövlükdə məhkəmə sisteminin informasiya sisteminin yaradılması və təkmilləşdirilməsi vahid razılaşdırılmış prinsiplər əsasında qurulmuş, Ali Məhkəmə rəhbərliyinin, aparatı və hakimlərin fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi keyfiyyətcə yeni mərhələyə keçidin əsasını qoymuşdur.

Ali Məhkəmədə İnformasiya texnologiyalarının tətbiqi sahəsində əsas məqsəd hakimlərin və məhkəmə aparatının fəaliyyətinin müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə müasirləşdirilməsi və prinsipcə yeni formaya keçməsi ilə məhkəmənin fəaliyyətinin səmərəliliyinin artırılması təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli "Elektron məhkəmə informasiya sistemi"nin yaradılması haqqında sərəncamının yerinə yetirilməsi məqsədi ilə 14 fevral 2014-cü il tarixdə Ali Məhkəmədə 13 nəfərdən ibarət xüsusi işçi qrup yaradılmış, "Elektron məhkəmə" sisteminin yaradılması məqsədi ilə tədbirlər planı, yerinə yetiriləcək işləri əhatə edən ilkin layihə hazırlanmış və təkliflər verilmişdir.

"Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə işçi qrupun üzvü kimi Ali Məhkəmə müxtəlif funksionallığı təmin edən proqram təminatının yaradılmasında fəal iştirak edir və 2016-cı ildən "Elektron məhkəmə informasiya sistemi" tətbiq edilməyə başlanmış və sərəncamdan irəli gələn digər məsələlərin yerinə yetirilməsi üzrə fəaliyyət daha da genişlənmişdir.

"Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə Azərbaycan Respublikası Prezidentinin 13 fevral 2014-cu il tarixli "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Sərəncamının 2-ci bəndində nəzərdə tutulan işlərin yerinə yetirilməsi təmin olunur.

“Elektron məhkəmə” informasiya sisteminin tətbiqi aşağıdakı işlərin yerinə yetirilməsini təmin edir:

- Daxil olan kassasiya şikayətlərinin, ərizə, şikayət və digər sənədlərin elektron qeydiyyatının aparılması;
- Kassasiya şikayətlərinin hakimlər arasında iş və icraat növü, habelə kateqoriyalar üzrə avtomatlaşdırılmış qaydada bölgüsünün hakimlərin iş yükünə mütənasib aparılması;
- Kassasiya şikayətlərinin və digər sənədlərin elektron dövriyyəsinin təmin olunması;
- İş üzrə iclas təyin olunan andan bu barədə məlumatın müvafiq elektron cədvələ avtomatlaşdırılmış qaydada əlavə edilməsi;
- Məhkəmə bildirişlərinin və digər məhkəmə sənədlərinin yaradılması;
- Məhkəmə prosesində iştirak edən şəxslərin sistem vasitəsi ilə SMS (elektron poçt) məlumatlandırması;
- Məhkəmə proseslərinin audio, video və digər yazan texniki vasitələrdən istifadə etməklə qeydə alınması;
- Məhkəmə protokolunun hazırlanması, məhkəmənin qəbul etdiyi akta uyğun olaraq müvafiq nəticənin sistemdə seçilməsi, qərarların sistemdə hazırlanması və Ali Məhkəmənin Elektron Arxivinə inteqrasiya edilməsi;
- İş üzrə aparılmış prosessual hərəkətlər barədə məlumatların avtomatik olaraq “Elektron məhkəmə” portalında göstərilməsi;
- Sistemdə proses iştirakçılarının «şəxsi kabinet» vasitəsi ilə iştirak etdiyi iş üzrə prosesin gedişi, çıxarılan qərarlar, onların icra vəziyyəti, onlardan verilən şikayət və ya protestlər barədə məlumat almaq imkanları;
- «Elektron hökumət» portalı vasitəsi ilə məhkəmə fəaliyyəti ilə bağlı bütün dövlət rüsumlarının elektron qaydada ödənilməsi;
- Məhkəmə üzrə bütün statistik hesabatların avtomatlaşdırılmış qaydada hazırlanması;
- «Elektron məhkəmə» informasiya sistemində toplanan məlumatlarının sistemləşdirilmiş və təhlükəsiz qaydada saxlanılması;
- İddia ərizələri, ərizələr, şikayətlər və onlarla bağlı digər sənədlər paralel olaraq elektron kabinet vasitəsi verilə bilmə imkanının olması, bu sənədlərin elektron qaydada qəbulu və işlənməsi;
- Məhkəmə sədrləri, hakimlər və onların işçiləri üçün işlər üzrə prosessual müddətlərə riayət olunmasına nəzarət edilməsi və müddətlərin bitməsi ilə bağlı xəbərdaredici funksionallıq.( Bu istiqamətdə təkmilləşdirmə işləri davam etdirilir).

Bununla yanaşı, statistik məlumatların elektron təhlilinin aparılması, habelə məhkəmə fəaliyyətində yarana biləcək ləngimələr barədə qabaqcadan məlumatlandırma funksionallığının yaradılması üzrə işlər davam etdirilir.

Eyni zamanda, hazırda Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə məhkəmə sisteminin məlumat və ehtiyat mərkəzlərinin yaradılması üzrə işlər aparılır.

Məhkəmə sistemində informasiya texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi və təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 330-VQD nömrəli Qanunu qəbul olunmuş və onun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 07 noyabr 2016-cı il tarixli sərəncamı imzalanmışdır. Bu qanuna əsasən iqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəmələrə elektron sənəd formasında verilə bilər, işdə iştirak edən şəxslər məhkəmə bildirişlərini və digər sənədləri elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) ala bilərlər. Məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılmalıdır.

"Elektron məhkəmə" informasiya sisteminin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir ki, bu da mövcüd funksionallıqların daha da yaxşılaşdırılması və yeni funksionallıqların yaradılmasını təmin edəcəkdir.

2016-cı ildən Ali Məhkəmədə yeni tətbiq olunan "Məhkəmə İşlərinin Elektron İdarəetmə" və "Elektron sənəd dövriyyəsi" sistemlərində istifadəçilərin işinin yüngülləşdirilməsi, sənədlərin işlənməsinin sürətləndirilməsi və işlərin prosessual qanuvericiliyin tələblərinə uyğun olaraq yerinə yetirilməsinin təmin olunması məqsədi ilə müəyyən dəyişikliklər və əlavələr edilmişdır.

Qeyd olunan qanunvericilik aktlarının icrasını tam, dolğun və çevik yerinə yetirilməsinin təmin olunması ilə əlaqədar Ali Məhkəmənin mövcud informasiya sistemlərinin "Elektron məhkəmə" informasiya sistemi ilə uyğunlaşdırlması, informasiya mübadiləsinin təmin olunması məqsədi ilə modernizasiya olunması, göstərilən elektron xidmətlərin keyfiyyətinin artırılması, yeni texnologiyalar tətbiq edilməklə informasiya təminatının yaxşılaşdırılması üzrə müəyyən işlər yerinə yetirilmiş və bu sahədə işlər davam etdirilir.

İqtisadi mübahisələr üzrə iddia ərizələri, ərizələr, şikayətlər və onlarla bağlı digər sənədlərin elektron formada təqdim olunması üçün təşkilatlar və vətəndaşlar "Elektron məhkəmə" portalında qeydiyyatdan keçməlidirlər.

Portalda yaradılan "Şəxsi kabinet" vasitəsi ilə məhkəmə işləri ilə bağlı bütün sənədlərin elektron formada təqdim olunması təmin olunur(https://e-mehkeme.gov.az/e-filing/Public/Cases).

Vətəndaşlar ərizə, şikayət və müraciətləri birbaşa Ali Məhkəmənin internet səhifəsindən də verə bilərlər(http://supremecourt.gov.az/siteform/onlinerequest).

2016-cı ildə Ali Məhkəmənin elektron kitabxana sistemi yaradılmış, hazırda onun modernizasiyası üzrə işlər davam etdirilir.

İşlərin yerinə yetirilməsinə nəzarəti təmin etmək üçün xüsusi daxili axtarış-nəzarət sistemi təkmilləşdirilmiş, "İnternet portal www.supremecourt.gov.az"-da "E-Xidmətlər" bölməsinə dəyişikliklər edilmiş və yeni bəndlər əlavə edilmiş, işlərin avtomatik bölgüsünün aparılması üçün xüsusi proqram sistemi hazırlanmışdır.

Ali Məhkəmənin Aparatı və İşlər İdarəsi 2016-cı ildə aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir.

**Ali Məhkəmənin Aparatı**

1. Məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsi
2. Beynəlxalq əlaqələr şöbəsi
3. Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi
4. Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi
5. İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi
6. Dövlət qulluğu və kadr məsələləri sektoru
7. İcra şöbəsi
8. Ali Məhkəmə Plenumunun katibliyi
9. Mülki kollegiyanın katibliyi
10. Inzibati-İqtisadi kollegiyanın katibliyi
11. Cinayət kollegiyasının katibliyi
12. Hərbi kollegiyanın katiblyi

**Ali Məhkəmənin İşlər İdarəsi**

1. İnformasiya Texnologiyaları şöbəsi
2. Maliyyə-Təsərrüfat şöbəsi
3. Ali Məhkəmənin Xatirə Muzeyi
4. Kitabxana
5. Arxiv
6. Ali Məhkəmənin mətbəəsi

Məlumatın əhatə etdiyi dövrdə Ali Məhkəmənin iş planına uyğun olaraq Aparatın müvafiq şöbələri tərəfindən müəyyən işlər görülmüşdür.

Azərbaycan Respublikasının Ali Məhkəməsi qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqinin vahid təcrübəsinin yaradılması və İnsan Hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqinin təmini istiqamətində öz səlahiyyətləri çərçivəsində mütəmadi olaraq tədbirlər həyata keçirir. Bu məqsədlə ayrı-ayrı

sahələr üzrə məhkəmələr tərəfindən baxılan işlər öyrənilərək ümumiləşdirilir, bu növ işlərə baxılarkən nöqsanlar və qanun pozuntuları aşkar edildikdə ümumiləşdirmənin nəticələri Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunda hakimlərin iştirakı ilə müzakirə olunur.

Belə ki, Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair 2013-2014-cü illərdə və 2015-ci ilin 1 yarısında Respublika Məhkəmələrində baxılmış mülki işlər üzrə, "Qaçaqmalçılıq"la bağlı Respublika məhkəmələri tərəfindən 2014-cü ildə baxılmış cinayət işləri üzrə məhkəmə təcrübəsi ümumiləşdirilmiş, nəticələri və apellyasiya məhkəmələrinin hakimlərinin iştirakı ilə Ali Məhkəmənin Plenumlarında müzakirə edilərək müvafiq olaraq 28 mart 2016-cı il tarixli 8-2/2016 №-li və 02 iyun 2016-cı il tarixli 10 №-li qərarlar qəbul edilmişdir.

Bundan başqa, Daşınmaz Əmlakın dövlət reyestrində qeydə alınması ilə bağlı 2015-ci ildə Respublikanın İnzibati-İqtisadi Məhkəmələrində, Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində daimi yaşama faktının müəyyən edilməsi və miqrasiya ilə bağlı digər məsələlərə dair 2013-2015-ci illərdə respublikanın məhkəmələrində baxılmış mülki işlər üzrə məhkəmə təcrübəsi ümumiləşdirilərək nəticəsi barədə məhkəmələrə icmal məktubları göndərilmişdir.

Həmçinin, 2014-2015-ci illərdə "İnsan alveri" (CM-nin 144-1, 144-2 və 144-3-cü maddələri) və CM-nin 243 və 244-cü maddələri ilə bağlı Respublikanın məhkəmələrində cinayət işlərinə baxılarkən qanunvericiliyin və beynəlxalq konvensiyaların tətbiqi təcrübəsi ümumiləşdirilmiş, nəticəsinin Ali Məhkəmənin Plenumunda 2017-ci ildə müzakirə edilməsi nəzərdə tutulmuşdur.

Bundan əlavə, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və məhkəmə statistikasının təhlili şöbəsinin əməkdaşları tərəfindən "Bakı şəhəri Nəsimi və Suraxanı Rayon Məhkəmələrində 2015-ci ildə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti" ümumiləşdirilmiş, birinci və apellyasiya məhkəmələrində hər ay baxılmış cinayət, mülki və inzibati-iqtisadi işlərə dair məhkəmənin yekun qərarları öyrənilərək Ali Məhkəmənin rəhbərliyinə yazılı məlumat verilmişdir.

Əvvəlki illərdə olduğu kimi 2016-cı ilin yanvar ayından başlayaraq Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsinin əsas funksional təyinatından irəli gələn analitik işin həyata keçirilməsi, qanunların və digər normativ hüquqi aktların, normativ xarakterli aktların, o cümlədən onlara edilmiş əlavə və dəyişikliklərin sistemləşdirilməsi və kodifikasiyası təmin edilmiş, Ali Məhkəməyə daxil olan qanunvericilik aktlarının və onların layihələrinin öyrənilməsi həyata keçirilmiş, bu layihələrlə əlaqədar rəy və təkliflər hazırlanaraq müvafiq sorğu edən

təşkilatlara göndərilmişdir. Əlavə olaraq şöbəyə daxil olan qanunların, fərmanların, qərarların və digər normativ hüquqi aktların, onlara edilən əlavə və dəyişikliklərin çoxaldılaraq, hərəsindən bir nüsxə olmaqla Ali Məhkəmənin hakimlərinə, Aparatın rəhbərliyinə və struktur bölmələrinə (o cümlədən lokal elektron şəbəkə vasitəsilə) verilməsi təmin edilmişdir. Şöbə tərəfindən müvafiq strukturlarla razılaşdırılaraq bir sıra qanun layihələri də hazırlanmışdır.

Ali Məhkəmə Bülletenində məhkəmələrin fəaliyyəti ilə əlaqədar Milli Məclisin Qanun və Qərarları, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair ümumiləşdirmələrin nəticələri, icmal məktubları və məhkəmə fəaliyyəti ilə bağlı əhəmiyyət kəsb edən sair məlumatlar şöbənin əməkdaşları tərəfindən toplanaraq, texniki baxımdan işlənərək nəşriyyata təqdim edilmiş və "Bülleten"lərin nəşriyyat tərəfindən vaxtında buraxılmasına nəzarət həyata keçirilmişdir.

Qanunvericilik bazasının "Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsində" olması ilə əlaqədar olaraq Ali Məhkəmənin kollegiya sədrlərinin, hakimlərin, Aparatın rəhbərliyinin və struktur bölmələrinin əməkdaşlarının müraciətlərinə əsasən şöbənin əməkdaşları öz növbəsində göstərilən şəxsləri müvafiq normativ hüquqi aktlarla təmin etmişdir.

Yuxarıda qeyd edilənlərlə yanaşı şöbənin əməkdaşları Ali Məhkəmənin sədrinin və digər rəhbər şəxslərin şöbənin Əsasnamədə nəzərdə tutulmuş funksiyalarının icrası ilə bağlı irəli gələn digər tapşırıqların yerinə yetirilməsinə cəlb olunmuşlar.

Ötən illərdə olduğu kimi 2016-cı il ərzində də yanvar ayından başlayaraq hər həftənin ikinci günü "İnsan hüquqları üzrə Avropa Məhkəməsinin" təcrübəsinin öyrənilməsi məqsədilə seminar-məşğələlərin təşkil edilməsi, Azərbaycan üçün aktual olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarından Ali Məhkəmənin müvafiq kollegiya sədrləri və hakimləri ilə razılaşdırılaraq mövzuların seçilməsi, seçilmiş qərarlar üzrə seminar-məşğələ cədvəllərinin tərtib edilməsi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları tərəfindən təmin edilmişdir. Məruzə edilmiş qərarların surətlərinin Azərbaycan Respublikasının apellyasiya və birinci instansiya məhkəmələrinə göndərilməsi həyata keçirilmiş və həmin qərarların Ali Məhkəmənin internet səhifəsində "Avropa Məhkəməsinin qərarları" bölməsində yerləşdirilməsi təmin edilmişdir.

Həmçinin seminarlar çərçivəsində şöbənin işçiləri tərəfindən presedent hüququnun aktual məsələləri üzrə (məhkəmədə dindirilməmiş şahidin ifadələri ilə məhkəmə aktının əsaslandırılması, ifadə azadlığı, əsgər ölümü ilə əlaqədar səmərəli araşdırmanın aparılması) məruzələr hazırlanmış və təqdim edilmişdir.

2016-cı il ərzində Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən qəbul edilmiş qərarlar daim izlənilərək, yeniliklər və Azərbaycana qarşı qəbul edilmiş qərarlar barədə Ali məhkəmənin hakimlərinə və əməkdaşlarına mütəmadi olaraq məlumat verilmişdir.

Bundan əlavə, Ali Məhkəmənin hakimlərinin icraatında olan işlərlə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq presedentlərinin tapılması, onların tərcümə olunması və hakimlərə təqdim olunması İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi tərəfindən təşkil edilmişdir.

Aidiyyati müraciətlərə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından kommunikasiyada olan işlərlə əlaqədar daxil olmuş sorğulara cavablar hazırlanmışdır.

25 may 2016-cı il tarixində İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyeva Birləşmiş Millətlər Təşkilatının özbaşına həbslər üzrə işçi qrupunun 16-25 may 2016-cı il tarixlərində Azərbaycan Respublikasında aparılan monitorinqinin nəticələrinə dair iclasında iştirak etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin 2016-ilin birinci yarımilliyinin iş planına uyğun olaraq Cinayət Kollegiyası və İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsi "İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri" mövzusunda 07 may 2016-cı il tarixdə Bakı Apellyasiya Məhkəməsinin, Sumqayıt Apellyasiya Məhkəməsinin və qeyd olunan məhkəmələrin yurisdiksiyasına daxil olan birinci instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə Bakı Apellyasiya Məhkəməsinin inzibati binasında, 21 may 2016-cı il tarixdə Gəncə Apellyasiya Məhkəməsinin, Şəki Apellyasiya Məhkəməsinin, Şirvan Apellyasiya Məhkəməsinin və qeyd olunan məhkəmələrin yurisdiksiyasına daxil olan birinci instansiya məhkəmələrinin hakimlərinin iştirakı ilə Şəki Məhkəmə Kompleksində və 11 iyun 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası məhkəmələrinin hakimlərinin iştirakı ilə Naxçıvan Şəhər Məhkəməsinin inzibati binasında seminarlar təşkil etmişdir. Bu seminarlarda Cinayət Kollegiyasının sədri Şahin Yusifov və İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Kəmalə Əliyeva, əməkdaşları Nərgiz Ocaqverdiyeva, Gülarə Abdullayeva, Ülkər Babazadə və Süleyman Aslanov "işgəncə, qeyri-insani və ləyaqəti alçaldan rəftarın anlayışları", "azadlıq və toxunulmazlıq hüququ" və "Konvensiyasının 3-cü və 5-ci maddələri ilə bağlı Azərbaycana qarşı qərarların təhlili" üzrə müvafiq təqdimatlarla çıxış etmişlər.

Şöbənin əməkdaşlarından Orxan Məmmədov, Tural Vəliyev və Süleyman Aslanov ixtisaslarını artırmaq üçün müvafiq olaraq Cənubi Qafqaz ölkələrindən olan gənc hüquqşünaslar üçün "Transformation Lawyers" adlı Regional Akademiyada (Berlin, 22 fevral – 11 mart 2016-cı il), Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) "Məhkəmə elmi üzrə potensialın gücləndirilməsi"

mövzusunda (Cənubi Koreya Respublikasında,14 aprel – 4 may 2016-cı il) və İnsan hüquqları üzrə beynəlxalq institutda “Silahlı münaqişələr və beynəlxalq insan hüquqları” mövzusunda (Strasburq, 4-22 iyul 2016-cı il) kurs keçmişlər.

Bununla yanaşı şöbənin əməkdaşları Əsasnamədə nəzərdə tutulmuş funksiyalarının icrasından başqa digər vəzifələrin və tapşırıqların yerinə yetirilməsinə də cəlb olunmuşlar.

2016-cü ildə Respublikanın təşkilatlarından və vətəndaşlardan 23462 müraciət (kassasiya şikayəti, kassasiya protesti, əlavə kassasiya şikayəti, ərizə, şikayət və sair) daxil olmuşdur.

Respublikanın təşkilatlarından və vətəndaşlardan daxil olmuş 8883 müraciət (23462 müraciətə aid edilməklə) prosessual sənədlər olduğu üçün (kassasiya şikayəti, kassasiya protesti, kassasiya şikayətinə etiraz, kassasiya şikayətinə əlavə, vəsatət, izahat və sair) icraatda olan işlərə əlavə edilmişdir. Digər 14579 müraciət isə Ali Məhkəmənin rəhbərliyi və aparatı tərəfindən baxılmışdır. 2016-cı ildə daxil olmuş müraciətlərin sayı 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 587(2,5%) müraciət artmışdır.

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09:00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir. 2016-cı ildə 1182 nəfər qəbul olunmuş, şikayətləri dinlənilmiş və onlara müraciət etmə qaydaları və digər hüquqları izah olunmuşdur.

Ali Məhkəmənin sədri və kollegiya sədrlərinin qəbulu təsdiq olunmuş cədvəl üzrə müəyyən olunmuş günlərdə və saatlarda aparılmışdır. Qəbul barədə ətraflı məlumat məhkəmənin internet səhifəsində (azərbaycan, rus və ingilis dillərində) yerləşdirilmişdir.

Arayışın əhatə etdiyi dövr ərzində Ali Məhkəmənin sədri və kollegiya sədrləri tərəfindən 186 nəfər qəbul olunmuşdur.

O cümlədən:

-Ali Məhkəmənin sədri-102 nəfər

-Mülki kollegiyanın sədri-32 nəfər

-İnzibati-İqtisadi kollegiyanın sədri-28 nəfər

-Cinayət kollegiyasının sədri-24 nəfər

Ali Məhkəmə Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin məsləhətçiləri tərəfindən həftənin bütün iş günləri saat 09-00-dan 18:00-dək vətəndaşların qəbulu həyata keçirilir.

Bundan əlavə qeyd olunan müddətdə Ali Məhkəmənin sədri tərəfindən **102** nəfər və kollegiya sədrləri tərəfindən **84** nəfər qəbul edilmiş və onlara müraciət etdikləri məsələlər üzrə müvafiq izahlar verilmişdir.

## Ali Məhkəmənin 2016-cı ildə beynəlxalq əlaqələri.

2016-cı ildə Ali Məhkəmənin həm Beynəlxalq hüquq təşkilatları, həm də ayrı-ayrı dövlətlərlə ikitərəfli beynəlxalq əlaqələrinin genişləndirilməsi və keyfiyyətcə yeni səviyyəyə qaldırılması istiqamətində mühüm tədbirlər görülmüşdür.

Belə ki, 2016-cı il yanvarın 29-da İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin dəvəti ilə Ali Məhkəmənin sədri Ramiz Rzayev Fransanın Strasburq şəhərində keçirilən 2016-cı il üzrə məhkəmə ilinin açılışına həsr olunmuş təntənəli iclasda və "Beynəlxalq və yerli məhkəmələr insan hüquqlarının irimiqyaslı pozulmalarına qarşı" mövzusunda keçirilən seminarda iştirak etmişdir. Tədbirdə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2015-ci il ərzindəki fəaliyyətinə nəzər salınmış, Avropa konvensiyasının müddəalarının və "Soyqırım, insanlığa qarşı cinayətlər və hərbi cinayətlər" və "Terrorizm" mövzularında məruzələr dinlənilmişdir.

Fevral ayının 21-də Azərbaycan Respublikası Ali Məhkəməsinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdir müavini Orxan Məmmədli Regional Akademiyada iştirak etmək məqsədi ilə Almaniya Federativ Respublikasının Berlin şəhərinə səfər etmişdir.

Mart ayının 2-6 tarixlərində Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri Əsəd Mirzəliyev və İlqar Xələfov Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən " Mülki prosesin ən əsas prinsipləri səmərəli və ədalətli məhkəmə prosesinin açarı kimi" adlı konfransda iştirak etmişlər.

Martın 14-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti Çin Xalq Respublıkası Ali Xalq Məhkəməsinin sədri Cou Çianın dəvəti ilə həmən ölkədə rəsmi səfərdə olmuşdur. Səfər zamanı cənab Ramiz Rzayev Çin Ali Xalq Məhkəməsinin sədri və Çin Xalq Respublikası Hakimlər Akademiyasının rəhbərliyi ilə görüş keçirmişdir. Səfər çərçivəsində Ali Məhkəmənin sədri ölkəmizdə məhkəmə sistemində şəffaflığın artırılması üzrə əlavə tədbirlərin görüldüyünü, ictimai iştirakçılıq və vətəndaş cəmiyyətləri ilə əməkdaşlığın genişləndirildiyini bildirərək bunun üçün Azərbaycan Respublikası Prezidentinin "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü ilin fevral ayında imzaladığı Sərəncamın əhəmiyyətini vurğulamış və bu sahədə görülmüş işlərdən danışmışdır.

Aprel ayının 5-də Azərbaycan Respublikası Ali Məhkəməsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərid Mədətli Ədliyyə İslahatı üzrə Regional Dialoqda iştirak etmək üçün Ukrayna Respublikasının Lvov şəhərinə səfər etmişdir.

Aprel ayının 13-də Azərbaycan Respublikası Ali Məhkəmə Aparatının İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Tural Vəliyev "Məhkəmə Elmi Üzrə Potensialın

Gücləndirilməsi” adlı təlim proqramında iştirak etmək üçün Koreya Respublikasının Seul şəhərinə səfər etmişdir.

Aprelin 17-də Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmail Rüştü Cirit, Türkiyə Respublikası Ali Məhkəməsinin Baş Prokuroru Mehmet Akarca, Türkiyə Respublikası Ədliyyə Akademiyasının rektoru Yılmaz Akgül və nümayəndə heyətinin digər üzvləri Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin dəvəti ilə Azərbaycana rəsmi səfərə gəlmişlər**. Səfər çərçivəsində Türkiyə** Respublikası Ali Məhkəməinin sədri İsmail Rüştü Cirit və **nümayəndə heyətinin digər üzvləri ilə görüş keçirilmişdir.**

**Aprel ayının 28-29 tarixlərində** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Xələfov Belarus Respublikasının Minsk şəhərində keçirilən “Hakimlərin və Prokurorların peşəkar təlimi” adlı seminarda iştirak etmək məqsədi ilə həmin şəhərə səfər etmişdir.

May ayının 2-də Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Xəqani Məmmədov Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən “İnzibati Mübahisələrin Alternativ Həlli Yolları” adlı seminarda iştirak etmək üçün həmin ölkəyə səfər etmişdir.

May ayının 3-6 tarixlərində Türkiyə Dövlət Şurasının dəvəti ilə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən Beynəlxalq Yüksək İnzibati Məhkəmələr Birliyinin 12 -ci Konfransında Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak etmişdir. Konfransda “İnzibati mübahisələrin alternativ həll yolları” əsas müzakirə mövzusu olmuşdur. Bununla yanaşı, Konfransın işinin gedişində komissiyalarda “Dövlət satınlamaları və tenderlər”, “İctimai xidmətlər” və “Vergi və iqtisadi tənzimləmələr” mövzularında da müzakirələr aparılmışdır.

May ayının 10-da Azərbaycan Respublikası Ali Məhkəmə Aparatının Mətbuat Katibi Allahverdi Məmmədli “Kıbrıs Türk Ədəbiyyatı və Ədəbiyyatçıları” adlı Beynəlxalq Konfransda iştirak etmək məqsədi ilə Türkiyə Respublikasının İzmir şəhərində səfərdə olmuşdur.

May ayının 10-da Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Şahin Yusifov “Ədliyyə sisteminin səmərəliliyi və keyfiyyətinə” dair seminarda iştirak etmək məqsədi ilə Estoniya Respublikasının Tallin şəhərinə səfər etmişdir.

May ayının 17-də Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparat Rəhbəri Əlirza Kərimov “Post-sovet Məkanında Beynəlxalq Ədalətin İnkişafında müasir meyllər” adlı Beynəlxalq Konfransda iştirak etmək məqsədi ilə Belarus Respublikasının Minsk şəhərinə səfər etmişdir.

Mayın 26-da Beynəlxalq hüquq konfransında içtirak etmək üçün ölkəmizdə səfərdə olan Cahid Özkanın başçılıq etdiyi Türkiyənin aparıcı-hüquq qeyri-hökumət təşkilatlarının

nümayəndələri Ali Məhkəmənin sədri cənab Ramiz Rzayevlə görüşmüşlər. Ali Məhkəmənin sədri respublikamızda həyata keçirilən məhkəmə-hüquq tədbirlərinin səmərəliliyini diqqətə çatdıraraq bu işin Ali Məhkəmənin strukturunda və fəaliyyətində öz əksini tapması barədə qonaqlara məlumat vermişdir. Nümayəndə heyətinin başçısı iki ölkə arasında qarşılıqlı əməkdaşlığın böyük əhəmiyyət daşıdığını vurğulamışdır. Qeyd edilmişdir ki, bu əməkdaşlıq bundan sonra da davam etdiriləcəkdir.

May ayının 26-da Azərbaycan Respublikası Ali Məhkəməsində ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Zühtü Arslanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilmişdir. Görüşdə Ali Məhkəmənin sədri Türkiyə Respublikası Konstitusiya Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin məhkəmə orqanları arasında əməkdaşlığın daha da inkişaf etməsinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir.

İyun ayının 20-də Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi İlqar Hüseynov "İnzibati Hüquq" adlı Beynəlxalq Forumda iştirak etmək məqsədi ilə Almaniya Federativ Respublikasının Leypsiq şəhərinə səfər etmişdir.

İyun ayının 20-22 tarixlərində Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin başçılıq etdiyi nümayəndə heyəti Belqradda keçirilən Mərkəzi və Şərqi Avropa Ali Məhkəmə Sədrlərinin Beynəlxalq Konfransında iştirak etmək məqsədi ilə Serbiya Respublikasına getmişdir. İyunun 20-də Serbiya Sarayında Beynəlxalq Konfransın təntənəli açılış mərasimi olmuşdur. Açılış mərasimindən sonra müxtəlif mövzuları əhatə edən iclaslar keçirilmiş və müzakirələr aparılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev "Ali Məhkəmələrin ədalət mühakiməsinin həyata keçirilməsində rolu" mövzusunda çıxış etmişdir

İyun ayının 27-də Azərbaycan Respublikası Ali Məhkəməsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fərid Mədətli və şöbənin böyük məsləhətçisi Emil Ələkbərov "Proqramlar üzrə Əməkdaşlıq Çərçivəsi" nəzdində Ədliyyə islahatları üzrə regional dialoqda iştirak etmək məqsədi ilə Moldova Respublikasının Kişinyov şəhərinə səfər etmişlər.

İyun ayının 6-da Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri Şahin Yusifov, İlqar Dadaşov, Vafəddin İbayev və Azərbaycan Respublikası Ali Məhkəmə Aparatının İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları Kəmalə Əliyeva, Gülarə Abdullayeva,

Süleyman Aslanov Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələlərinə dair seminarda çıxış etmək məqsədi ilə Naxçıvan şəhərinə səfər etmişlər.

İyun ayının 23-26 tarixlərində Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin başçılıq etdiyi nümayəndə heyəti Monteneqro Respublikasında rəsmi səfərdə olmuşdur. Ali Məhkəmənin sədrini Monteneqro Respublikasının Prezidenti Filip Vuyanoviç qəbul etmişdir. Ali Məhkəmənin sədri Monteneqro Ali Məhkəməsinin sədri xanım Vesna Medenisa ilə, Məhkəmə Şurasının sədri, professor doktor Mladen Vudçeviçlə, Baş nazirin müavini Duşko Markoviçlə keçirdiyi rəsmi görüşlərdə Azərbaycanla Monteneqronun məhkəmə hüquq sistemləri arasında əməkdaşlıq əlaqələrindən və bu əlaqələrin daha da genişləndirilməsi zərurətindən danışmışdır.

İyul ayının 1-də Azərbaycan Respublikası Ali Məhkəmə Aparatının İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı Süleyman Aslanov "Silahlı münaqişələr və Beynəlxalq İnsan Hüquqları Haqqında qanun" adlı Konfransda iştirak etmək üçün Fransa Respublikasının Strasburq şəhərinə səfər etmişdir.

Sentyabrın 8-də Hindistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Azərbaycanın məhkəmə sistemi, Ali Məhkəmənin strukturu və fəaliyyəti barədə məlumat verən Ali Məhkəmənin sədri bildirmişdir ki, Azərbaycanda Beynəlxalq hüquqi aktlar, xüsusən də "İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəaları, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ tətbiq olunur. Səfir Azərbaycanın müasir tələblərə cavab verən qanunvericilik bazasına xüsusi maraq göstərmişdir. Azərbaycanın mövcud qanunvericiliyi və hüquq sistemi ilə daha yaxından tanış olmaq üçün qarşılıqlı əlaqələrin genişləndirilməsinin vacibliyini qeyd etmişdir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 9-da Avropa Parlamentinin vitse-prezidenti, Avropa Mühafizəkar və İslahatçılar qrupunun büro üzvü Riçard Çarneskinin başçılıq etdiyi Avropa Parlamentinin üzvü Kosma Zlotovski, İtaliya Parlamentinin üzvü Nikola Ciraci və Avropa Mühafizəkar və İslahatçılar qrupunun siyasi müşaviri Beata Sobkieviçdən ibarət nümayəndə heyəti Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşlər. Qonaqlar ölkəmizlə Avropa Parlamenti arasında əlaqələrin böyük əhəmiyyət daşıdığını və bu əlaqələrin bundan sonra da davam etdiriləcəyini bildirmişlər. Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Sentyabrın 15-də BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. BMT-nin insan hüquqları müdafiəçilərinin vəziyyəti üzrə xüsusi məruzəçisi Mişel Forst Azərbaycanla BMT arasında əməkdaşlığın böyük əhəmiyyət daşıdığını və bu əlaqələrin bundan sonra da davam etdiriləcəyini bildirmişdir. Qonağa hüquq müdafiəçilərinin, QHT-lərin hüquqlarının məhkəmə qaydasında təmin olunması, Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının ölkədaxili hansı prosedurlardan keçməsi ilə bağlı ətraflı məlumat verilmişdir.

Sentyabrın 19-da Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alper Coşkun fəaliyyət müddətinin başa çatması ilə əlaqədar vidalaşmaq məqsədilə Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür.Görüşdə Ali Məhkəmənin sədri Ramiz Rzayev Türkiyə və Azərbaycanın Dövlət başçılarının qarşılıqlı səfərlərində və beynəlxalq tədbirlərdə həmrəylik nümayiş etdirmələri qarşılıqlı əlaqələrinin daha da möhkəmlənməsi üçün böyük imkanlar açdığını, hər iki xalqın həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu vurğulamışdır.

Sentyabr ayının 29-da Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Vəfaddin İbayev və aparatın Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Fərid Mədətli "Ədliyyə islahatı üzrə regional dialoq" adlı layihə çərçivəsində işçi qrupların üçüncü mərhələ görüşündə iştirak etmək məqsədi ilə Fransa Respublikasının Strasburq şəhərinə səfər etmişlər.

Oktyabr 3-də Ali Məhkəmənin hakimi Tatyana Qoldman Hill, Fox News Latino və dünyanın digər nəşrlərin müəllifi məşhur amerikalı jurnalist, radio və televiziya şərhçisi, beynəlxalq səviyyədə tanınmış cənab Raul Loueri Contreras ilə görüşmüşdür. Görüşdə ölkənin məhkəmə sistemində qadınların rolu, eləcə də Azərbaycanda multikulturalizm və tolerantlıq haqqında müzakirələr aparılmışdır. Cənab Contreras Ali Məhkəmənin strukturu, hakimlərin vəzifələri və ümumiyyətlə məhkəmənin funksiyaları, o cümlədən Ali Məhkəmənin fəaliyyəti ilə bağlı bir neçə sual vermişdir. Hakim Qoldman bütün sualları cavablandıraraq hakimlərin statusu və müstəqilliyi barədə, eləcə də 65 hakim qadınların Azərbaycanın məhkəmə sisteminin inkişafındakı rolu barədə danışmışdır. Görüşün sonunda cənab Contreras prezident İlham Əliyevin müdrik rəhbərliyi altında ölkəmizin irəliləyişi və daimi inkişafını arzu etmiş, bütövlükdə azərbaycan xalqına qonaqpərvərliyə görə öz minnətdarlığını bildirmişdir.

Oktyabrın 9-da Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Kəmaləddin Bədəlov və Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər Müdiri Bəşir Abdullayev "Mərkəzi Asiya və

Şərqi Avropa ölkələrinin Kommersiya vasitəçiliyi" adlı Beynəlxalq Forumda iştirak etmək üçün Belarus Respublikasının Minsk şəhərinə səfər etmişlər.

Oktyabrın 17-də Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Qürbət Əsgərov "İfadə azadlığı və media azadlığı" adlı Beynəlxalq Konfransda iştirak etmək məqsədi ilə Fransa Respublikasının Strasburq şəhərinə səfər etmişdir.

Noyabr ayının 11-də Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Əli Seyfəliyev "Terrorizm, hüquq və məhkəmə təcrübəsi. Terrorizmlə mübarizədə yeni yanaşmalar" adlı Konfransda iştirak etmək üçün Gürcüstan Respublikasının Tiflis şəhərində səfərdə olmuşdur.

Noyabrın 16-da Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Erkan Özoral Ali Məhkəmənin sədri Ramiz Rzayevlə görüşmüşdür. Görüşdə yeni təyinatı münasibətilə səfiri təbrik edən Ali Məhkəmənin sədri eyni dil, ənənə və dəyərlərlə bir-birinə yaxın olan hər iki xalqın vahid ideya birliyi və həmrəyliyi ilə bağlı çoxsaylı nümunələrin mövcud olduğunu qeyd etmişdir. Ali Məhkəmənin sədri Azərbaycanla qardaş Türkiyənin məhkəmə hüquq sistemləri arasında əlaqələrinin yeni mərhələyə qədəm qoyduğunu, bu əlaqələrin uğurla inkişaf edərək nəinki ikitərəfli, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində genişləndiyini vurğulamışdır. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılmışdır.

Dekabr ayının 5-də Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri Əli Rüstəmov və Zakir Quliyev "Alman müqavilə hüququna" dair Konfransda iştirak etmək məqsədi ilə Almaniya Federativ Respublikasının Berlin şəhərinə səfər etmişdilər.

# Ali Məhkəmənin İnternet səhifəsi




Ali Məhkəmənin internet səhifəsi Azərbaycan Respublikası Prezidentinin yanında Xüsusi Dövlət Mühafizə Xidmətinin serverlərində, www.supremecourt.gov.az ünvanında yerləşdirilmişdir. Ali Məhkəmənin yeni internet səhifəsi üç dildə – azərbaycan, rus və ingilis dillərində tərtib edilmişdir.

Ali Məhkəmənin internet səhifəsi 5 əsas bölmədən ibarətdir. Burada Azərbaycan Respublikası haqqında məlumatlar, Ali Məhkəmənin strukturu, Qanunvericiliklə bağlı sənədlər, Məhkəmə sənədləri və qərarları, Avropa İnsan Hüquqları məhkəməsinin qərarları, Ali Məhkəmədə keçirilmiş beynəlxalq konfrans materialları, hakimlərin intizam məsuliyyətinə cəlb olunması barədə məlumat, işlərin təyinatı və baxılmış işlərin nəticələri, məhkəmə aidiyyəti, vətəndaşların, ərizə və müraciətlərin qəbulu, arayışlar və mətbuat xidməti haqqında məlumat almaq olar.

Bundan başqa, internet səhifəsində Ali Məhkəmənin rəhbərliyinin və hakimlərinin xarici dövlətlərə səfərləri, ölkədaxili tədbirlərdə iştirakı, habelə, Ali Məhkəmənin təşkil etdiyi tədbirlər haqqında məlumatlarla ətraflı tanış olmaq mümkündür.




Ali Məhkəmənin İnternet səhifəsinin "E-Xidmətlər" bölməsində məhkəməyə daxil olmuş işlər barədə operativ məlumatlar, təyin olunmuş işlər barədə gündəlik və həftəlik məlumatlar dərc olunur, məhkəmə qərarlarının axtarışı üçün xüsusi interfeys yaradılmış, "online müraciət" və qəbul bəndləri əlavə edilmiş, həmçinin hər bənd üzrə istifadəçi üçün təlimat dərc edilmişdir.

2016-cı il ərzində Ali Məhkəmənin

internet səhifəsinə daxil olan adamların sayı 159033, daxil olmaların sayı 186996, müraciətlərin sayı isə 550368 dəfə olmuşdur ki, bu da ötən ilin uyğun dövrünə nisbətən orta hesabla 1.3, 1.28 və 1.9 dəfə artıqdır (Qrafik 1).

2012-ci ildən bəri sayta müraciətlərin dinamikasından göründüyü kimi (Qrafik 2), müraciətlərin sayı hər il təqribən 15% artaraq 285598-dən 550368-ə çatmışdır.

2016-ci il ərzində Ali Məhkəmənin internet səhifəsinə dünyanın 100-dən çox ölkəsindən 186879 nəfər daxil olunmuşdur ki, bunların 171022-i Azərbaycandan, 4628-i ABŞ-dan, 2714-ü Rusiyadan, 1880-i Avstriyadan, 976-sı Türkiyədən, 902-si Almaniyadan, 574-ü Ukraniyadan, 446-sı İsveçrədən, 374-üGürcüstandan, 332-i Fransadan və 3031-i isə digər ölkələrdən olmuşdur.

Qrafiklərdə müraciətlərin təkrar-lanma və davamlılığa görə paylanması nümayiş edilir. Üçüncü qrafikdən göründüyü kimi bütün müraciətlərin 61.3%-i bir, 14.27%-i iki, 7.64%-i üç, 3.75%-i dörd, 2.64%-i beş və 10.4%-i altı dəfə və daha çox təkrar olmuşdur.




Qrafik 3




Qrafik 4

Dördüncü qrafikdə müraciətlərin davamlılığı nümayiş etdirilir. Buradan göründüyü kimi bütün müraciətlərin 71.19%-i 30 saniyəyə qədər, 4.24%-i 31-60 saniyə, 8.78%-i 1-3 dəqiqə, 10.21%-i 3-10 dəqiqə, 5.22%-i 10-30 dəqiqə, 0.35%-i isə 30 dəqiqədən artıq davam etmişdir.

# Ali Məhkəmənin bülleteni

Azərbaycan Respublikası Ali Məhkəməsinin rəsmi nəşri olan bülleten 2003-cü ilin yanvar ayından nəşr olunur.

İldə dörd dəfə nəşr olunan bülletendə məhkəmə fəaliyyəti ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Ali Məhkəmə Plenumunun qərarları, Ali Məhkəmənin sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar, qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsinə dair Ali Məhkəmədə aparılan ümumiləşdirmənin nəticələri, icmal məktubları, Ali Məhkəmənin beynəlxalq əlaqələri, Ali Məhkəmə sədrinin görüşləri, məhkəmə təcrübəsi üçün əhəmiyyət kəsb edən məhkəmə qərarları və məhkəmə fəaliyyəti ilə bağlı digər maraqlı materiallar, onun Xüsusi Buraxılışında isə müstəsna əhəmiyyətə malik olan məlumat və sənədlər dərc olunur.

2016-cı ildə Ali Məhkəmənin dörd bülleteni çap olunmuşdur.

2016-cı ildə buraxılmış bülletenlərdə həmçinin, Cinayət işləri, İnzibati-İqtisadi və Mülki işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qanunvericiliyin bəzi maddələrinin şərhinə həsr olunmuş analitik yazılar, “Telefon danışıqlarının dinlənilməsi ilə bağlı Azərbaycan Respublikası qanunvericiliyinin İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyasının 8-ci maddəsinə uyğunluğu baxımından təhlili”, “Həbs qətimkan tədbirinin məhkəmə tərəfindən ləğv edilməsi məsələləri nəzəri və təcrübi kontekstdə”, “Ədalət mühakiməsində ədalətə qanunun düzgün tətbiqi ilə nail olunmalıdır” məqalələri, beynəlxalq əlaqələrə və görüşlərə həsr olunmuş məlumatlar, aktuallıq kəsb edən digər tədbirlər öz əksini tapmışdır.

Ali Məhkəmənin bülletenini abunə yazılmaqla əldə etmək olar. Rəngli formada buraxılışı ilə əlaqədar bülletenin illik abunə haqqı 100 manatdır.

Abunə haqqı aşağıda göstərilən hesaba ödənilməlidir.

«Ali Məhkəmənin mətbəəsi» AZ 1025.Bakı şəhəri, Yusif Səfərov küçəsi 14, 1193-cü məhəllə, müqavilə üzrə - İbrahim Ziya, VÖEN 3100693732, H/Hesab №:(IBAN) AZ47UBAZ01009655541040AZN001, Unibank KB-də VÖEN 1300017201, kod 505754, UniBank KB, VÖEN 1300017201, kod 505754, m/h AZ46NABZ01350100000000015944, SWDET BİK: UBAZAZ22.

## Ali  Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi və onun maddi-texniki təchizatı Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına həyata keçirilir.

Ədalət mühakiməsinin məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun həyata keçirilməsi üçün ölkə Prezidenti tərəfindən məhkəmələrə hər cür şərait yaradılmış və bu proses indi də davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Ali Məhkəməsi hakimlərinin  sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında" 19 oktyabr 2010-cu il tarixli sərəncamı bu sahəyə diqqətin əyani nəticəsidir.

Ali Məhkəmənin fəaliyyətinin maliyyələşdirilməsi üçün  2016-cı ildə ayrılan illik büdcə vəsaiti (dürüstləşmə ilə) **7014195** manat, o cümlədən, əmək haqqı fondu **4773461** manat müəyyən edildiyi halda,  2017-ci ildə Ali Məhkəməyə ayrılan büdcə vəsaiti **7073384** manat müəyyən edilmişdir ki, bu da 2016-cı ildə ayrılan büdcə vəsaitindən **59189**  manat çoxdur.

## Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə əlaqə qaydası

Kütləvi informasiya vasitələri nümayəndələrinin Ali Məhkəmə ilə birbaşa əlaqəsinin təmin edilməsi, lazım gəldikdə Ali Məhkəmədə baxılmış mülki və cinayət işləri haqqında onlara operativ qaydada məlumat vermək Ali Məhkəmənin hakimləri Mirzəliyev Əsəd Abdulla oğluna və Kərimov Fərhad Abdulkərim oğluna həvalə olunmuşdur.

Mülki işlərlə əlaqədar məlumat almaq üçün hakim Əsəd Mirzəliyevlə **493-48-38** nömrəli, cinayət işləri ilə əlaqədar isə hakim Fərhad Kərimovla **493-22-03** nömrəli telefonlarla birbaşa əlaqə saxlamaq olar.

Bundan əlavə, həmin hakimlərlə Ali Məhkəmənin contact@supremecourt.gov.az  e-mail ünvanı vasitəsilə də əlaqə saxlamaq olar.

Ali Məhkəmədə keçirilən tədbirlər haqqında müvafiq məlumatları **493-18-37** nömrəli telefonla Ali Məhkəmənin  mətbuat katibi Allahverdi Məmmədlidən almaq olar.

*Məlumat kitabçası Ali Məhkəmənin əməkdaşları tərəfindən hazırlanmışdır.*

*Redaktor: Allahverdi Məmmədli*

*Tiraj – 200 nüsxə*